

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

31 dekabr 2025-ci il, çərşənbə
№ 240 (7067)
Qiyməti 60 qəpik





## Hər zaman vətəndaşın yanında!



Bax səh. 4

## Parlament Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Müraciət qəbul edib

Bax səh. 2

## Uğurlu siyasət, güclü dövlət...

Bax səh. 3

## Milli birlik bayramı!



Bax səh. 2

## İnkişaf salnaməsinin parlaq səhifəsi

Bax səh. 5

## 2025-ci ilin yekunları: dəyişən dünya nizamının konturları

Bax səh. 6

## Azərbaycan mədəniyyətinin 2025-ci il portreti...

Bax səh. 8

## Köhnə ildən incikliyimiz, yeni ildən umacağımız



Bax səh. 7

## 2025-ci ildə qlobal iqtisadiyyatın mənzərəsi



Bax səh. 7



# Milli birlik bayramı!

**31 dekabr köhnə ilin son günüdür. Qarşıdan yeni il gəlir. Köhnə ili xatirələrlə yola salmağa, yeni ili arzularla qarşılamağa hazırlaşırıq. Ancaq ilin son günü Azərbaycan xalqı üçün yalnız bu səbəbə görə əlamətdar deyil. Bu günü bizim üçün xüsusi əlamətdar edən daha mühüm səbəb isə 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi müəyyənləşdirilməsidir.**

**Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası “Azərbaycanlıların həmrəyliyi günü haqqında” tarixi qərarı 1991-ci il dekabrın 25-də qəbul edib. Bəhs olunan sənədlə qərara alınıb ki, hər il dekabr ayının 31-i bütün dünyada yaşayan azərbaycanlıların həmrəyliyi günü elan edilsin. Həmin vaxtdan etibarən dünyanın ayrı-ayrı nöqtələrində yaşayan on milyonlarla azərbaycanlının qəlbində ana Azərbaycana böyük məhəbbətlə eyni bir ürək döyünür.**

## O qarlı, şaxtalı gündə...

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün tarixi 1989-cu il dekabrın son gününə uzanır. Azərbaycan xalqı Vətən, torpaq sevgisi son dərəcə böyük olan bir xalqdır. Yadellilərin planları nə qədər məkrli, iblis xislətli olsa da, bizim qan yaddaşımızdan torpaq sevgisini, yurd həsrətini silə bilməyib. Araza baxıb köks ötürmüşük, xəyallarımızda o tayla bu tayı həmişə bütöv sanmışıq.

Ötən əsrin səksəninci illərinin sonlarına doğru keçmiş ittifaq məkanında adi olmayan proseslər izlənilirdi. Xalqların özünüdərk, özünütəsdiq hissləri güclənmişdi. Azərbaycan da milli azadlıq hərəkatının bu və ya digər şəkildə açıq müstəviyə keçdiyi respublikalar sırasında yer alırdı. Beləliklə, keçmiş SSRİ-nin süqutu ərəfəsində - 1989-cu il dekabrın son günlərində Araz sahillərində yaddaşımızda əbədi qalacaq hadisələr yaşandı. Arazın o tayından və bu tayından olan azərbaycanlılar onları ayıran tikanlı çəpərləri dağıtdılar. Hava soyuq və şaxtalı olsa da, Arazın sahilində bir-birinə qovuşan azərbaycanlılar günlərlə orada qaldılar və birləşmək istədiklərini bütün dünyaya bəyan etdilər. 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü də məhz xalqımızın birləşmək istəyini simvolizə edir.

## Heydər Əliyevin təşəbbüsü ilə qəbul olunan tarixi qərar

Soydaşlarımızın sıx birliyini hədəfləyən azərbaycançılıq ideologiyasını milli məfkurəmizə böyük siyasətçi Heydər Əliyev daxil edib. Bir tərəfdən Onun parlaq şəxsiyyəti azərbaycanlılar üçün böyük qürur mənbəyi idi. Digər tərəfdən, Heydər Əiyev hələ keçmiş sovet dönəmində Azərbaycana rəhbərlik etdiyi illərdən başlayaraq dilimizə, mədəniyyətimizə, ədəbiyyatımıza sonsuz qayğı göstərməklə xalqa milli ideya aşılayırdı.

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qeyd edilməsi ideyası da Heydər Əliyevə məxsusdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il dekabrın 16-da Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə tarixi qərar qəbul edildi. Təbii ki, təşəbbüs bilavasitə Heydər Əliyevin Özündən gəlmişdi. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Azərbaycan Respublikasının Ali Sovetinə müraciət ünvanlayıb. Dekabrın 25-də Ali Sovetin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul edib.

## Şuşada Zəfər qurultayına doğru

Sonrakı mərhələdə Heydər Əliyev dünya azərbaycanlılarının birliyinin institutlaşması prosesinin əsasını qoyub. Onun təşəbbüsü ilə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultaydan sonra Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli fərmanı ilə xaricdəki soydaşlarımızla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (hazırda Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də isə “Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında” Qanunun qəbul edilməsi dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da gücləndirdi.

Zamanında Heydər Əliyevin əsasını qoyduğu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən eyni ardıcıllıqla davam etdirilir. Dövlətimizin başçısının səyləri sayəsində diaspor quruculuğu sahəsində dövrlə səsləşən genişmiqyaslı tədbirlər həyata keçirilir. Dövlət başçısı xaricdə yaşayan hər bir azərbaycanlının maraq və mənafeyinin qorunmasını Azərbaycan dövlətinin başlıca vəzifəsi kimi müəyyənləşdirib. Prezident İlham Əliyevin bu istiqamətdə ortaya qoyduğu siyasi iradə ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımızda milli ruhun yüksəlməsinə, onların vahid ideologiya və məqsədlər ətrafında daha sıx səfərbər olmalarına böyük töhfə verir. Hədəf xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsidir. Prezident İlham Əliyevin 2018-ci il 6 iyul tarixli fərmanı ilə Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondu yaradılıb. Dövlət başçımızın təşəbbüsü ilə 2019-cu ildə “Diaspor fəaliyyətində xidmətə görə” Azərbaycan Respublikasının medalı təsis edilib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsi dünya azərbaycanlılarının yeni bir qürur mənbəyinə çevrilib. Dünya azərbaycanlılarının 2001-ci ildə Bakıda keçirilən birinci qurultayında Heydər Əliyev əminliklə bildirib ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Bu missiyanı xalqımız dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə reallaşdırmağa nail oldu. Soydaşlarımız son dərəcə qürurludurlar ki, uzun işğal illərindən sonra dünya azərbaycanlılarının V qurultayı azad Şuşada keçirildi. 22 aprel 2022-ci ildə baş tutan qurultay tarixdə Zəfər Qurultayı kimi qalacaq.

*Mübariz FEYİZLİ*

# Milli Məclisin payız sessiyası başa çatıb

## Parlament Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Müraciət qəbul edib

### Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya bayram təbrikləri ünvanlanıb

**Dekabrın 30-da Milli Məclisin payız sessiyasının son iclası keçirilib. Spiker Sahibə Qafarova iclasın gündəliyi haqqında məlumat verib. Gündəliyə 15 məsələ daxil edilib.**

## İki beynəlxalq saziş təsdiqlənib

Əvvəlcə millət vəkilləri cari məsələlərlə bağlı çıxış ediblər. Komitə sədrləri Zahid Oruc, Hücran Hüseynova, Tahir Rzayev, deputatlar Bəhruz Məhərrəmov, Günay Əfəndiyeva, Ceyhun Məmmədov, Vüqar Bayramov, Göydəniz Qəhrəmanov, Vüqar İskəndərov və Vasif Qafarov çıxış edərək başa çatmaqda olan 2025-ci ilin Azərbaycan üçün uğurlu il olduğunu bildiriblər. Çıxışlarda qeyd edilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bu il mühüm nailiyyətlərə imza atıb.

Sonra gündəlikdəki məsələlər müzakirə olunub. Əvvəlcə “Azərbaycan Respublikası Hökuməti ilə Somali Federativ Respublikası Hökuməti arasında diplomatik pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş”in təsdiq edilməsi məsələsinə baxılıb. Layihə haqqında parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Rizvan Nəbiyev məlumat verib. O bildirib ki, saziş Azərbaycan ilə Somalinin diplomatik pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsini nəzərdə tutur. Sənəd 2025-ci il oktyabrın 15-də Kampala şəhərində imzalanıb. Müzakirələrdən sonra saziş təsdiqlənib.

“Azərbaycan Respublikası Hökuməti ilə Uqanda Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş” barədə isə deputat Zaur Şükürov məlumat verib. O qeyd edib ki, sənədə əsasən Azərbaycan ilə Uqandanın diplomatik və xidməti pasport sahibləri vizadan qarşılıqlı azad olunurlar. Bu saziş də 2025-ci il oktyabrın 15-də Kampala şəhərində imzalanıb.

Sonra “Minatəmizləmə fəaliyyəti haqqında” Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə layihə qəbul olunub.




## Bəzi qanunlar üçüncü oxunuşda qəbul olunub

İclasda “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) qəbul olunub. Qeyd edilib ki, qanun layihəsinin əsas məqsədi ictimai mənəviyyatı qorumaq, xüsusilə yeniyetmə və gəncləri sosial şəbəkələrdə yayılan zərərli və qeyri-etik informasiyadan müdafiə etmək, həmçinin internet mühitində məsuliyyət mexanizmlərini dəqiqləşdirərək mövcud qanunvericiliyi təkmilləşdirməkdir.

Bu məqsədlə qanunun 13-cü maddəsinə 13-2.3.6-1. bəndi əlavə olunur. Düzəlişdə deyilir ki, kütləvi nümayiş etdirildiyi halda ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən hərəkətlərin edilməsinə, yəni əxlaqsız ifadələrin səsləndirilməsinə və ya belə məzmun təəssüratı yaradan jestlərin edilməsinə, yaxud insan bədəninin hissələrinin əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd formada göstərilməsinə dair məlumatların yayılması qadağan edilir. Vurğulanıb ki, layihə mənəvi dəyərlərin qorunmasını təmin etmək, yeniyetmə və gənclərin zərərli informasiyadan qorumaq, bu növ informasiyaların yayılmasını önləmək zərurətindən irəli gələrək hazırlanıb.

Qeyd edək ki, iclasın gündəliyində üçüncü oxunuşda olan digər qanun layihələri də qəbul olunub.

## Soydaşlarımıza çağırış!

Millət vəkilləri iclasın sonuncu məsələsi olan Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Milli Məclisin Müraciətini qəbul ediblər. Müraciətdə bildirilir ki, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 34 il öncə başlanmış mənəvi bütövləşmə prosesi xalqımızın milli mənlik şüuruna və tarixi köklərə bağlılığından güc alıb. Ulu Öndər milli birlik ideologiyasının möhkəm əsaslarını yaradıb, azərbaycanlıların həmrəyliyinə strateji əhəmiyyət verib və Azərbaycançılıq məfkurəsini dövlət siyasətinin önəmli bir amilinə çevirib.

Qeyd edilib ki, ötən 22 ildə həmin kurs Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ardıcıl davam etdirilib: “Dünya azərbaycanlıları ilə əlaqələrin möhkəmləndirilməsinə, diaspor təşkilatlarının imkanlarının genişləndirilməsinə və beynəlxalq aləmdə rolunun artırılmasına, harada yaşamasından asılı olmayaraq, soydaşlarımızın hüquq və mənafelərinin, təhlükəsizliyinin, milli kimliyinin qorunmasına, onların inkişafına, Azərbaycan dilini, ənənələrini və mədəniyyətini qoruyub saxlamasına, dəfələrlə soyqırımına və deportasiyaya məruz qalmış Qərbi azərbaycanlıların hüquqlarının bərpasına və zorla tərk etməyə məcbur olduqları ata-baba torpaqlarına dinc qayıdışına dəstək verilməsi xalqımızın birlik və həmrəyliyinin güclənməsinə xidmət edir. Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyulmasını, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpasını təmin etmiş İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı Azərbaycan Respublikasının güclü bir dövlət olduğunu, Azərbaycan xalqının öz sözünü qəbul etdirə bilən mütəşəkkil bir qüvvə kimi formalaşdığını və daim öz dövlətini dəstəklədiyini nümayiş etdirib.

Müraciətdə vurğulanıb ki, bugünkü müstəqil Azərbaycan dövləti xalqımızın ən böyük tarixi nailiyyətlərindən biridir. Hər bir soydaşımız və həmvətənimiz bilir ki, ona arxa duran, şərəf və ləyaqətini qorumağa hazır olan milli dövləti var. Odur ki, dünyanın müxtəlif qitələrində məskən salmış soydaşlarımız tarixi Vətəndə baş verən ictimai-siyasi prosesləri diqqətlə izləyir, Azərbaycanın Cənubi Qafqaz bölgəsinin lider dövlətinə çevrilməsi, geniş bir bölgədə söz sahibi olması ilə fəxr edirlər. “Onlar yaşadıqları ölkələrdə fəal vətəndaş mövqeyi tutaraq Azərbaycanın milli maraqlarını dəstəkləyirlər. Soydaşlarımızın və həmvətənlərimizin fəaliyyəti Azərbaycan haqqında obyektiv təsəvvürün formalaşmasına, onun nüfuzunun yüksəlməsinə və xarici dövlətlər ilə humanitar, mədəni və ictimai əlaqələrinin genişlənməsinə kömək göstərir. Ötən dövrdə əldə edilmiş uğurlar Azərbaycan dövlətinin və cəmiyyətinin müasir çağırışlara lazımınca cavab verməyə və davamlı olaraq irəliyə getməyə qadir olduğunu göstərir. Eyni zamanda, müasir inkişaf mərhələsi daha geniş miqyaslı vəzifələrin yerinə yetirilməsi üçün möhkəm zəmin yaradıb”,-deyə bildirilib.

Qeyd edilib ki, Azərbaycanın bütün potensialının üzə çıxarılaraq dünyaya daha yaxından tanıdılması, xalqımızın qədim adət-ənənələrinin, gözəl dilinin, zəngin mədəniyyətinin yaşadılması və təbliğ edilməsi sahəsində görüləsi işlərimiz çoxdur: “Soydaşlarımızın və həmvətənlərimizin bir vəzifəsi də yaşadıqları ölkələrin ictimai-siyasi həyatına inteqrasiya etməklə bərabər, milli özgünlüyümüzü uca tutmaq, hər sahədə bir-birinə dəstək olmaqdır. Azərbaycan xalqının varlığı və gələcəyi, milli dövlətçiliyimizin əbədi davam etməsi dünya azərbaycanlılarının birliyindən və mütəşəkkilliyindən çox asılıdır”.

## 2025-ci ildə 38 iclas keçirilib, 181 qanun və 33 qərar qəbul edilib

Payız sessiyasına yekun vuran spiker Sahibə Qafarova bildirib ki, yola saldığımız il ölkəmizin həyatı üçün xüsusi əhəmiyyət daşıyan bir dövrə təsadüf edib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin 2025-ci ili “Konstitusiya və Suverenlik İli” elan etməsi dövlət hakimiyyəti sisteminin, o cümlədən qanunvericilik orqanının işinə əlavə məna və dəyər ölçüsü gətirib. “Konstitusiya və Suverenlik İli” çərçivəsində Milli Məclisin təşkilatçılığı ilə 18 tədbir keçirilib.

Spiker qeyd edib ki, payız sessiyasında parlamentin 16 iclası olub, 86 qanun və qərar layihəsinə baxılıb. Ümumilikdə isə, 2025-ci ildə Milli Məclisin 38 plenar iclası keçirilib, 181 qanun və 33 qərar qəbul edilib. O, bu dövrdə parlamentin beynəlxalq fəaliyyəti, eləcə də keçirilən tədbirlər haqqında ətraflı məlumat verib.

“Bilirsiniz ki, qarşıdan bizim gözəl bayramlarımız gəlir. Xalqımız Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü, daha sonra isə Yeni ili qeyd edəcək. Təklif edirəm ki, Prezidentimiz İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq, Azərbaycan dövlətinin bugünü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq”, - deyə S.Qafarova vurğulayıb. Onun bu təklifi deputatlar tərəfindən alqışlarla qarşılanıb.

Parlamentin payız sessiyası dövlət himninin səsləndirilməsi ilə başa çatıb.

*Nardar BAYRAMLI*

# Uğurlu siyasət, güclü dövlət...

## Zəfərlə sona yetən növbəti il: 2025 mühüm məqamları ilə yadda qaldı

**“Konstitusiya və Suverenlik İli”, 2025-ci ilin başa çatmasına 1 gün qalır. Bu il siyasi baxımdan dərin məzmunlu və strateji nəticələri ilə yadda qalan bir dövr kimi tariximizə yazıldı. Başa vuracağımız il dövlətçilik ənənələrinin möhkəmləndirilməsi ilə yanaşı, müstəqil siyasət xəttinin qlobal miqyasda daha aydın ştrixlərlə yazılması ilə fərqləndi. Beləliklə, Azərbaycan 2025-ci ili artıq tam suverenliyini təmin edilməsinin beşinci ilini yaşayan, regionda yeni reallıqlar yaradan əsas siyasi aktor kimi başa vurur.**



### 19 xarici səfər...

Xarici siyasət kursumuz bu il də yaddaqalan uğurları ilə seçildi. Prezident İlham Əliyev dekabrın 29-na kimi 19 xarici səfər edib:

13 yanvar 2025 Birləşmiş Ərəb Əmirlikləri: Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışında və Zayed Dayanıqlılıq Mükafatının təqdimat mərasimində iştirak etmək üçün;

- 22 yanvar 2025 İsveçrə Konfederasiyası: səfər çərçivəsində Prezident İlham Əliyev Davosda Çinin CGTN telekanalına müsahibə verib, bir neçə aparıcı şirkətin rəhbəri ilə görüşüb, Latviya, İraq, İsrail, Ukrayna prezidentləri İraq Kürdüstan Regionunun və Xorvatiyanın baş nazirləri, Almaniya Kansleri, ABŞ-ın Xristian Liderlər Konqresinin rəhbəri, Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti ilə görüşüb

- 6 mart 2025 Türkiyə: İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimində iştirak edib, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşüb;

- 12 aprel 2025 Türkiyə: Şimali Kiprin Prezidenti Ersin Tatar, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Suriyanın keçid dövrü Prezidenti, Gürcüstanın Baş naziri İrakli Kobaxidze, Sudanın Suveren Keçid Şurasının Sədri, AŞ-nın Baş katibi Alen Berse ilə görüşüb, “Antalya Diplomatik Forumu”nun açılış mərasimində iştirak edib.

- 24 aprel 2025 Çin Xalq Respublikası: Çinin Sədri Si Cinpin ilə görüşüb, Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat imzalanıb, Pekində Xalq Qəhrəmanları Abidəsini ziyarət edib, Çinin CGTN telekanalına müsahibə verib.

- 16 may 2025 Albaniya: Aİ Şurasının Prezidenti və Avropa Komissiyasının Prezidenti, Albaniyanın Baş naziri ilə görüşüb, “Avropa Siyasi Birliyi”nin 6-cı Zirvə toplantısının açılış plenar sessiyasında iştirak edib. nin işçi nahar əsnasında görüşü olub.

21 may 2025 Macarıstan: Macarıstanın Baş naziri ilə görüşüb, Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak edib.

- 19 iyun 2025 Türkiyə: Prezident Rəcəb Tayyib Ərdoğanla görüşüb, Türkiyənin Kahramanmaraş şəhərində “Azərbaycan” məhəlləsinin açılış mərasimində iştirak edib.

- 10 iyul 2025 BƏƏ: BƏƏ Prezidenti, Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşüb.

- 9 avqust 2025 ABŞ: Azərbaycanın və ABŞ-ın prezidentləri, Ermənistanın Baş naziri Vaşinqtonda keçirilmiş görüşə dair Birgə Bəyannamə, Azərbaycan və ABŞ hökumətləri arasında Anlaşma Memorandumu imzalanıb, Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri sülhə dair saziş layihəsini paraflayıblar və ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciəti imzalayıblar.

- 22 avqust 2025 Türkmənistan: Türkmənistan Xalq Məsləhətinin sədri ilə görüşüb, Türkmənistan, Azərbaycan və Özbəkistan arasında yüksəksəviyyəli görüş keçirilib, üç ölkənin liderlərinin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub.

- 3 sentyabr 2025 Çin: Çinin Sədri Si Cinpin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Maldiv Prezidenti, Pakistanın Baş naziri, Ermənistanın Baş naziri Nikol Paşinyan ilə, bir sıra aparıcı şirkətlərin rəhbərləri ilə görüşüb, “ŞƏT plyus” formatında görüşdə iştirak edib.

- 27 sentyabr 2025 ABŞ: BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak edib, bir sıra aparıcı şirkətlərin rəhbərləri, İraq, Keniya, Finlandiya, Portuqaliya prezidentləri, Yunanıstanın, Bolqarıstanın baş nazirləri, AŞ-nın Baş katibi, BMT-nin Baş katibi Antonio Quterreş ilə görüşüb, BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxış edib.

- 2 oktyabr 2025 Danimarka: Moldova, Ukrayna, Fransa prezidentləri, Aİ Şurasının Prezidenti və Avropa Komissiyasının Prezidenti, Ermənistanın, Niderlandın baş nazirləri, İtaliya Nazirlər Şurasının Sədri ilə görüşüb, “Avropa Siyasi Birliyi”nin 7-ci Zirvə toplantısının açılış mərasimində və açılış plenar sessiyasında iştirak edib

- 10 oktyabr 2025 Tacikistan: Rusiya Prezidenti Vladimir Putin ilə təkbətək görüşüb, MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edib.

- 13 oktyabr 2025 Misir: Yaxın Şərq Sülh Sammitində iştirak edib

- 21 oktyabr 2025 Qazaxıstan: Prezident Kasım-Jomart Tokayev ilə görüşüb, Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın ikinci iclasında iştirak edib.

- 16 noyabr 2025 Özbəkistan: Özbəkistan Prezidenti ilə görüşüb, “Gələcəyin İrsi” Beynəlxalq Mükafatının təqdimat mərasimində iştirak edib, Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə çıxış edib.

- 9 dekabr 2025 Slovakiya: Slovakiya Prezidenti, bu ölkənin Milli Şurasının sədri və Baş naziri ilə görüşüb.

- 17 dekabr BƏƏ: BƏƏ Prezidenti ilə görüşüb, “Gələcəyin oyunları 2025” adlı illik qlobal idman turnirinin açılış mərasimində iştirak edib.



### Bakı ilə Pekin strateji tərəfdaş qismində...

Bu səfərlərin hər biri Azərbaycanın çoxvektorlu xarici siyasətinin uğurunun göstəricisidir. Amma bir neçə görüş var ki, xüsusi əhəmiyyət daşıyır. Məsələn, aprelin 24-də Azərbaycan ilə Çin arasında imzalanan hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat münasibətləri yeni müstəviyə daşıdı, tərəfdaşlığa yeni mahiyyət qazandırdı - artıq Çin ilə Azərbaycan hərtərəfli strateji tərəfdaş olaraq yeni bir platformada çıxış etməyə start verib. Bu, sözügedən Birgə Bəyanatda açıq şəkildə ifadə edilir. Bildirilir ki, hər iki dövlət başçısı diplomatik münasibətlərin qurulmasından ötən 33 il ərzində Azərbaycan-Çin əlaqələrinin inkişafındakı nailiyyətləri yüksək qiymətləndirərək səmimi və dostluq mühitində danışıqlar aparıblar və hər iki ölkənin bir-birini prioritet təşkil edən, etibarlı və qarşılıqlı faydalı strateji tərəfdaş kimi nəzərdən keçirdiyini təsdiq edərək, qarşılıqlı siyasi etimadı daim möhkəmləndirməyə, qarşılıqlı dəstəyi gücləndirməyə, hər iki ölkənin xalqlarının mənafeyi naminə hərtərəfli əməkdaşlığı inkişaf etdirməyə hazır olduqlarını ifadə edərək, hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması barədə yekdilliklə qərar qəbul ediblər. Bəyanatın ilk maddəsində deyilir ki, tərəflər xalqlarının seçdiyi və milli şərtlərə uyğun olan inkişaf yolunu seçməkdə bir-birini möhkəm dəstəkləyir, hər iki ölkənin təməl maraqlarının, suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün qorunmasında bir-birinə qətiyyətli dəstək verirlər. Bundan başqa, sənəddə siyasi-ictimai əlaqələrin möhkəmlənməsi, milli təhlükəsizliyə və regional sabitliyə yaranacaq ciddi hədələrə qarşı birgə mübarizə, ümumbəşəri dəyərlərin təşviqi, sülh və təhlükəsizlik üzrə birgə səylər də qeyd edilib.






### Azərbaycan Mərkəzi Asiya Məşvərət Şurasına üzv oldu...

Bu il noyabrın 16-da daha bir tarixi an yaşandı - Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə Azərbaycan tamhüquqlu iştirakçı qismində Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşü formatına qoşuldu. Qeyd edək ki, son illərdə Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasında əlaqələr həm siyasi, həm iqtisadi, həm də humanitar sahələrdə misilsiz dərəcədə intensivləşib. Dövlət başçılarının qarşılıqlı səfərlərinin artması, imzalanan strateji tərəfdaşlıq və müttəfiqlik sənədləri, birgə iqtisadi komissiyaların işinin aktivləşdirilməsi bu inteqrasiyanın hansı miqyas aldığını aydın şəkildə göstərir. Mərkəzi Asiya ölkələri Azərbaycanın regiondakı rolunu yüksək qiymətləndirir və ölkəmizin həm iqtisadi gücünə, həm də diplomatik nüfuzuna xüsusi önəm verir. Azərbaycan isə öz növbəsində Mərkəzi Asiya regionunu ayrı-ayrı ölkələr kimi deyil, vahid geosiyasi və geoiqtisadi məkan kimi qəbul edir. Bu yanaşma Bakı üçün strateji baxımdan çox böyük üstünlük yaradır. Azərbaycan və Mərkəzi Asiya ölkələri son illərdə beynəlxalq arenalarda da koordinasiyanı ciddi şəkildə artırıblar. Bu əməkdaşlıq artıq çoxtərəfli diplomatik xətt üzrə formalaşır. Dövlətlər BMT, ATƏT, İƏT, Qoşulmama Hərəkatı və digər təşkilatlarda bir-birinin təşəbbüslərini dəstəkləyir, TDT müstəvisində vacib məsələlərdə ortaq mövqe nümayiş etdirirlər. Bu koordinasiyanın güclənməsi regionun qlobal siyasətdə çəkisini artırır. Sözügedən inteqrasiyanın yaxın illərdə Avrasiyanın siyasi xəritəsində böyük rol oynayacaq yeni güc mərkəzinin formalaşmasına gətirib çıxaracağına şübhə yoxdur.

### Vaşinqton görüşü: sülh yolunda həlledici an...

Bu ilin avqustunda Vaşinqtonda baş tutan görüşlər, Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin paraflanması, ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı birgə müraciət (artıq proses yekunlaşıb), eləcə də Zəngəzur dəhlizi (TRIPP) ilə bağlı razılaşmalar qlobal nizama təsir edən ən mühüm tarixi hadisələr kimi yadda qaldı. ABŞ Prezidenti, Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında aparılmış müzakirələr, imzalanmış sənədlər və əldə olunmuş razılaşmalar yalnız Cənubi Qafqazda yeni reallıqların təsbit olunmasına xidmət etmir, eyni zamanda, qlobal təhlükəsizlik, inteqrasiya və tərəqqi üçün də mühüm nəticələr vəd edir. Azərbaycanın qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz gediş-gəlişi təmin edəcək layihənin Vaşinqton razılaşmalarında xüsusi yer alması da diqqətçəkicidir. Zəngəzur dəhlizi (TRIPP) seqmentinin beynəlxalq dəstəklə təsdiqlənməsi ölkəmizin daxili logistik imkanlarının yüksək dəyərləndirilməsi olmaqla yanaşı, həm də dünyaya yeni bir strateji tranzit alternativi təqdim edir. Bu, iqtisadi, siyasi və təhlükəsizlik baxımından regionun inkişafına xidmət edəcək mühüm nailiyyətdir.





### Bakı mühüm tədbirlərə ev sahibliyi etdi...

Ötən il ərzində ölkəmizdə də bir sıra yaddaqalan tədbirlər reallaşıb:

- 4 aprel 2025: Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasları keçirilib;

- 9 aprel 2025: ADA Universitetində İlham Əliyevin iştirakı ilə “Yeni dünya nizamına doğru” mövzusunda beynəlxalq forum keçirilib;

- 28 may 2025: Laçında Azərbaycan Prezidentinin, Türkiyə Prezidentinin və Pakistanın Baş nazirinin Zirvə görüşü keçirilib;

- 4 iyul 2025: Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü keçirilib;

- 19 iyul 2025: III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüş keçirilib;

- 7 oktyabr 2025: Qəbələdə Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilib;

- 8 noyabr 2025: Bakıda Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad keçirilib.

Bu tədbirlərin hər biri ayrı-ayrılıqda mühüm nüansları ilə seçilib. Azərbaycanda reallaşan yüksək səviyyəli siyasi, iqtisadi və beynəlxalq platformalar ölkənin artan nüfuzunu və qlobal gündəmdə tutduğu mövqeyi aydın şəkildə nümayiş etdirib. Müxtəlif vaxtlarda paytaxtda və regionlarda keçirilən bu tədbirlər Azərbaycanın təkcə iştirakçı deyil, həm də təşəbbüskar və ev sahibi dövlət kimi çıxış etdiyini təsdiqləyir. Enerji təhlükəsizliyi və yaşıl keçid mövzularında aparılan müzakirələr ölkəmizin Avropa və daha geniş coğrafiya üçün etibarlı tərəfdaş statusunu möhkəmləndirir, yeni əməkdaşlıq formatlarının əsasını qoyur.

Eyni zamanda beynəlxalq ekspertlərin, dövlət və hökumət rəhbərlərinin, media nümayəndələrinin iştirakı ilə təşkil olunan forumlar Azərbaycanın yeni dünya nizamında baxışlarını, regional sabitliyə verdiyi töhfəni və dialoqa açıq siyasətini ön plana çıxarır. Xüsusilə işğaldan azad edilmiş ərazilərdə keçirilən yüksək səviyyəli görüşlər həm siyasi, həm də simvolik baxımdan mühüm mesaj xarakteri daşıyır - bu, suverenliyin bərpasının beynəlxalq müstəvidə qəbul edildiyini göstərir.

Türk dünyası, İslam coğrafiyası və regional təşkilatlar çərçivəsində baş tutan sammitlər Azərbaycanın körpü rolunu, çoxşaxəli diplomatiyasını və strateji tərəfdaşlıqlarını daha da gücləndirir. İlin sonunda keçirilən möhtəşəm tədbir - parad isə həm hərbi-siyasi gücün, həm də milli birliyin nümayişi oldu. Bütün bu proseslər nəticə etibarilə Azərbaycanın beynəlxalq imicinin yüksəlməsinə, ölkənin sabit, güclü və etibarlı aktor kimi qəbul olunmasına ciddi töhfə verdi.

### Sabah üçün böyük ümidlər...

2025-ci il həm də Azərbaycan Konstitusiyasının cəmiyyət həyatında rolunun daha da gücləndiyi, hüquqi-siyasi institutların yeni mərhələyə qədəm qoyduğu bir il oldu. Daxili siyasi sabitlik, dövlət-vətəndaş münasibətlərində qarşılıqlı etimadın artması və islahatların davamlı xarakter alması, dövlətin inkişafına mane olmaq istəyən ünsürlərin ifşa olunması və təmizlənməsi əsas amillər sırasında yer aldı.

Bəli, bu il qlobal geosiyasi gərginliklərin fonunda Bakı praqmatik və prinsipial mövqeyi ilə etibarlı tərəfdaş imicini daha da möhkəmləndirdi. Regionda sülh təşəbbüslərinin müəllifi kimi çıxış edən Azərbaycan, yeni dünya nizamında öz yerini təkcə coğrafi mövqeyi ilə deyil, siyasi iradəsi və strateji baxışı ilə də müəyyən etdi. Məhz bu baxımdan 2025-ci ilin siyasi yekunları Azərbaycan dövlətçiliyinin gücünü və dayanıqlığını aydın şəkildə ortaya qoyur. Qarşıdan gələn iliniz mübarək... Uğurlarımız daimi olsun...

Eyni zamanda, 2025-ci il Azərbaycanın beynəlxalq münasibətlər sistemində çəkisinin artdığı, çoxvektorlu xarici siyasətinin real nəticələr verdiyi bir mərhələ kimi diqqət çəkdi. Qlobal geosiyasi gərginliklər fonunda Bakı praqmatik və prinsipial mövqeyi ilə etibarlı tərəfdaş imicini daha da möhkəmləndirdi. Regionda sülh təşəbbüslərinin müəllifi kimi çıxış edən Azərbaycan, yeni dünya nizamında öz yerini təkcə coğrafi mövqeyi ilə deyil, siyasi iradəsi və strateji baxışı ilə də müəyyən etdi. Məhz bu baxımdan 2025-ci ilin siyasi yekunları Azərbaycan dövlətçiliyinin gücünü və dayanıqlığını aydın şəkildə ortaya qoyur.

*Pərviz SADAYOĞLU*

# Hər zaman vətəndaşın yanında!

Sosial sfera uğurlu inkişaf modelinə malik olan Azərbaycanda ardıcıllıqla həyata keçirilən siyasətin prioritet istiqamətlərindən birini təşkil edir. Azərbaycan dövləti hər zaman ən çətin məqamlarda vətəndaşın yanında olmaq, ona dəstək vermək nümunəsi ortaya qoyur.

Bəs yola salmağa hazırlaşdığımız 2025-ci ilin sosial yekunları necədir? Prezident İlham Əliyevin imzaladığı sənədlər, reallaşdırılan tədbirlər əyani şəkildə təsdiqləyir ki, son bir ildə də Azərbaycan dövləti özünü dərin məzmunlu sosial siyasətinə sadiq qalıb və bu xətti gələcəkdə də davam etdirmək niyyətindədir.



## 4 milyon insanı əhatə edən sosial islahatlar

Son 22 ilə aid statistik göstəricilər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin sosial sahəyə necə həssaslıqla yanaşdığını aydın şəkildə göstərir. Bəhs olunan dövrdə dövlətimizin başçısının imzaladığı fərman və sərəncamlarla sosial ödənişlərin davamlı olaraq artırılması istiqamətində mühüm addımlar atılıb. 2003-2025-ci illərdə minimum aylıq əməkhaqqı 44 dəfə, minimum aylıq pensiya 16 dəfə artırılıb və orta aylıq əməkhaqqında 14 dəfə, orta aylıq pensiyada 23 dəfə, yaşa görə orta aylıq pensiyada 23 dəfə artım baş verib. Ölkəmizdə aparılan uğurlu sosial siyasətin mühüm bir istiqaməti pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsidir. Bunun daha bir göstəricisi olaraq pensiya təminatına yönəldilən illik vəsaitin həcmi 2003-cü illə müqayisədə 2025-ci ildə 37 dəfə artaraq 7,2 milyard manatı ötüb. Pensiyaların orta aylıq məbləği 2003-cü ildə pensiyaçılar üçün yaşayış minimumundan 2 dəfə aşağı olubsa, cari ildə bu məbləğ pensiyaçılar üçün yaşayış minimumunu 2,3 dəfə üstələyib.

Həmçinin, 2003-cü ildən 2025-ci ilədək olan dövrdə 15-dən çox yeni aylıq sosial ödəniş növü təsis edilib, sosial təminat sistemində vətəndaş yönümlü, humanist yanaşmalar tətbiq olunub, həssas əhali qruplarına dövlət qayğısı ildən-ilə artırılaraq, sosial müdafiə və sosial təminat sisteminin əhatə dairəsi əhəmiyyətli dərəcədə genişləndirilib. "Azərbaycan xalqı ildən-ilə daha yaxşı yaşamalıdır. Bizim artan iqtisadi gücümüz ölkəmizin güclənməsinə, ilk növbədə, xalqımızın rifah halının yaxşılaşmasına yönəlməlidir və biz bunu edirik", - deyən Prezident İlham Əliyevin tapşırıqları əsasında 2018-2025-ci illərdə ardıcıl olaraq 5 sosial islahat paketi reallaşdırılıb. 4 milyondan çox vətəndaşı əhatə edən sosial məzmunlu islahatlara illik əsasda əlavə olaraq 7,6 milyard manat vəsaitin ayrılması təmin edilib.

## Yeni sosial paket

Ölkə vətəndaşları 2024-cü ilin son günlərində yeni sosial paketin elan edilməsi xəbərinə sevindilər. Prezident İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" 23 dekabr 2024-cü il tarixli sərəncam vətəndaş rifahının təminatı məqsədilə aparılan sosial islahatların uğurla davam etdirildiyini bir daha təsdiqləyir. Yeni sərəncama əsasən, 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılıb. Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub.

Yeni sosial islahat paketində 2025-ci ildən digər sosial ödənişlərin artırılması da yer alıb. O cümlədən dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə aylıq tarif (vəzifə) maaşlarının minimum aylıq əməkhaqqının artırılmış yeni məbləğinə uyğunlaşdırılması təmin edilib.

Yeni sosial paket çərçivəsində 2025-ci ilin əvvəlindən pensiyaların indeksləşdirilərək artırılması da nəzərə alınmaqla ümumən 3 milyon insana yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlər artırılıb və həmin artımlar üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılıb.

2018-2025-ci illərdə aztəminatlı ailələrə mühüm dəstək olan ünvanlı yardımın hər ailəyə düşən orta aylıq məbləği də 2,4 dəfə artaraq 175 manatdan 425 manata çatıb. Bu dövrdə yaşayış minimumu 65 faiz artırılaraq 173 manatdan 285 manata, ehtiyac meyarı 2,2 dəfə artırılaraq 130 manatdan 285 manata çatdırılıb. Prezident İlham Əliyevin "Aztəminatlı ailələrə birdəfəlik maddi yardım verilməsi haqqında" 22 dekabr 2025-ci il tarixli sərəncamı aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət və qayğının növbəti təzahürüdür.

Dövlət büdcəsində sosialyönlü xərclərin ardıcıl və ciddi artımı da sosial dövlətin mühüm cəhətlərindən biri kimi diqqəti cəlb edir. Məsələn, bu xərclər 2021-ci ildəki 10,3 milyard manatdan 2025-ci ildə 16,9 milyard manata çatdırılıb. Beləliklə, həmin xərclərdə qısa müddətdə 6,6 milyard və ya 1,6 dəfə artım olub. Sosialyönlü xərclərin çəkisinin büdcədə 41 faiz olması sosial rifahın dövlət siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiqləyir.

Bütövlükdə, 5-ci sosial islahat paketinin ilk mərhələsində ölkədə:

- Bu il yanvarın 1-dən minimum əməkhaqqı 345 manatdan 16 faiz artımla 400 manata çatdırılıb;
- Minimum əməkhaqqı artımına uyğun olaraq Nazirlər Kabinetinin təsdiq etdiyi Vahid Tarif Cədvəlinin 19 pilləsinin hər biri üzrə maaşlar orta hesabla 16 faiz artırılıb və beləliklə, minimum əməkhaqqı artımı yalnız minimum əməkhaqqı alanların maaşlarında deyil, dövlət və özəl sektorda çalışan, müxtəlif məbləğlərdə əməkhaqqı alan ümumilikdə 700 min işçinin maaş artımına imkan verib;
- Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqları 2025-ci il yanvarın 1-dən orta hesabla 15 faiz artırılıb;
- Dövlət orqanlarında çalışan dövlət qulluqçusu olmayan işçilərin maaşları, büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda tədris məşğələlərinin aparılmasına cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri və s. artırılıb.
- Bütün növ pensiyalar 2025-ci ilin əvvəlindən indeksləşdirilərək 8,1 faiz artırılıb.
- 2025-ci il fevralın 1-dən minimum pensiya 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılıb;
- 2025-ci il üçün yaşayış minimumu və ehtiyac meyarı da 270 manatdan 285 manata çatdırılıb.

## 5-ci sosial paketin 2-ci mərhələsi

Ölkədə aparılan dərin məzmunlu sosial siyasətə sadiqliyin təsdiqi olaraq dövlətimizin başçısı 12 iyun 2025-ci il tarixində "Sosial müavinətlərin, Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin və fəxri adlara görə təqaüdlərin məbləğlərinin artırılması və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamında dəyişiklik edilməsi haqqında" Fərman imzalayıb. Sənəd çox doğru olaraq sosial sferanın dəstəklənməsi baxımından növbəti mühüm addım kimi dəyərləndirilir.

Bəhs olunan fərmanla ölkəmizdə sayca 5-ci sosial paketin iyul ayından etibarən ikinci mərhələsinin icrasına başlanıb. Onun əhatə dairəsi kifayət qədər genişdir. Burada müxtəlif istiqamətlər üzrə sosial ödənişlərdə ciddi artımlar nəzərdə tutulub. Beləliklə, dövlətimizin başçısının imzaladığı fərmanla iyulun 1-dən Azərbaycanda:

-Şəhid ailəsi, 20 Yanvar şəhidinin ailəsi, Əfqanıstanda həlak olan hərbçilərin ailələri üçün Prezidentin aylıq təqaüdü - 700 manata,

-Müharibə, 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirmək və Çernobıl AES-də hərbi xidmət ilə əlaqədar əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdü, orqanizmin funksiyalarının:

81-100 faiz pozulmasına görə (I dərəcə) - 600 manata,

61-80 faiz pozulmasına görə (II dərəcə) - 500 manata,

31-60 faiz pozulmasına görə (III dərəcə) - 400 manata,

-Vətən Müharibəsi Qəhrəmanlarına Prezidentin aylıq təqaüdü - 2200 manata,

-Azərbaycanın Milli Qəhrəmanlarına Prezidentin aylıq təqaüdü - 2000 manata,

-Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü - 1700 manata,

-Uşağın anadan olmasına görə birdəfəlik müavinət - 600 manata,

-Dəfn üçün birdəfəlik müavinət - 600 manata,

-Himayədar ailəyə verilmiş əlilliyi olan uşağa görə aylıq müavinət: 0-6 yaş arası uşaq üçün - 500 manata,

7-13 yaş arası uşaq üçün - 600 manata,

14-18 yaş arası uşaq üçün - 650 manata,

-Əlilliyi olan şəxslərə müavinət, orqanizmin funksiyalarının:

81-100 faiz pozulmasına görə (I dərəcə) - 300 manata,

61-80 faiz pozulmasına görə (II dərəcə) - 250 manata,

31-60 faiz pozulmasına görə (III dərəcə) - 180 manata,

-Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) gözdən əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdü - 350 manata,

-Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) əlilliyi olan şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) Prezidentin aylıq təqaüdü - 250 manata,

-Övladlığa götürülən hər uşağa görə aylıq müavinət - 240 manata,

-Ailə başçısını itirməyə görə aylıq müavinət (hər ailə üzvü üçün) - 140 manata,

-Bir yaşınadək uşağı olan aztəminatlı ailələrə (ünvanlı yardım alan) hər uşağa görə aylıq müavinət - 140 manata,

-Beşdən çox uşağı olan qadınlara hər uşağa görə aylıq müavinət - 140 manata,

-Müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqlarına aylıq müavinət (hər uşağa görə) - 140 manata,

-Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqların qəyyumları üçün aylıq müavinət - 140 manata,

-Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) və əlilliyi olan uşaqlara qulluq edənlərə Prezidentin aylıq təqaüdü - 120 manata,

-Fəxri adlara layiq görülmüş şəxslərə aylıq təqaüd:

"Xalq" fəxri adına görə - 300 manata,

"Əməkdar" fəxri adına görə - 200 manata çatdırılıb.

Göründüyü kimi, bəhs olunan fərmanın əhatə dairəsi kifayət qədər genişdir. Sənədə əsasən, sosial müavinət və təqaüdlər orta hesabla 20 faiz artırılıb.

## Şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə xüsusi diqqət və qayğı

Ölkəmizdə Prezident İlham Əliyev tərəfindən şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə daim xüsusi diqqət və qayğı göstərilir. Ulu Öndər Heydər Əliyevin tapşırığı ilə ötən əsrin 90-cı illərində şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil və fərdi evlərlə təminatı proqramına başlanılıb. Dövlətimizin başçısının göstərişi ilə bu proqram ildən-ilə uğurla davam etdirilib, həmçinin möhtəşəm Zəfərimizlə başa çatan Vətən müharibəsindən sonra 5 dəfə genişləndirilib. Postmüharibə dövründə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 6900, ümumilikdə ötən dövrdə 16 minə yaxın mənzil verilib. Həmçinin müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin avtomobillə təminatı işləri uğurla davam etdirilməklə, postmüharibə dövründə 567, ümumən ötən dövrdə 7700 avtomobil müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə verilib.

Eyni zamanda, 2007-ci ilin əvvəlindən şəhid ailələri, 2008-ci ildən müharibə ilə əlaqədar əlilliyi olan şəxslər üçün Prezidentin aylıq təqaüdü təyin edilib. Ötən dövrdə bu təqaüdlərin məbləği şəhid ailələri, habelə müharibə ilə əlaqədar I və II dərəcə əlilliyi olan şəxslər üçün 7 dəfə, müharibə ilə əlaqədar III dərəcə əlilliyi olan şəxslər üçün 8 dəfə artırılıb. Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər təqaüdlə bərabər, aylıq pensiya və müavinətlərlə də təmin olunurlar.

Onların uşaqları, eyni zamanda, müharibə ilə əlaqədar I və II dərəcə əlilliyi olanlar ödənişli təhsil aldıqda təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir. Şəhid ailəsi üzvləri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər aktiv məşğulluq proqramlarına, o cümlədən özünüməşğulluq proqramına ən qısa zamanda növbədənkənar cəlb edilirlər və onlar üçün həmçinin vergi, əmək qanunvericiliyində və s. bir sıra güzəştlər də nəzərdə tutulub. Son illər 1997-ci ilin 2 avqustuna qədərki dövrdə şəhid olmuş hərbçilərin ailələrinə və həmin dövrədək hərbi xidmətdə xəsarət alaraq əlilliyi müəyyən olunmuş şəxslərə birdəfəlik ödəmələrin verilməsi proqramları uğurla icra olunub.

44 günlük Vətən müharibəsindən sonrakı dövrdə şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən genişmiqyaslı sosial dəstək paketi 132 min unikal şəxsi əhatə edib və onlara 406 min xidmət göstərilib. O cümlədən 106 min nəfərə sosial ödəniş (pensiya, müavinət, təqaüd) təyin edilib. 28,7 min nəfərin məşğulluğuna dəstək, 11 min nəfərə 93 min sosial-psixoloji dəstək, reabilitasiya xidməti göstərilib, 500-dək hərbçiyə 620 yüksək texnologiyalı protez verilib.

Görülən işlər nəticəsində 2018-2025-ci illərdə reabilitasiya xidməti göstərilənlərin illik sayı 10 dəfədən çox artıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən 2025-ci ilin yanvar-noyabr aylarında əlilliyi olan şəxslərə 118 min reabilitasiya vasitəsi verilib və onlara 130 min reabilitasiya xidmətləri göstərilib.

## Dünya üçün nümunəvi təcrübə

Cari ildə əmək bazarında gender bərabərliyinin dolğun təminatı məqsədilə uğurlu islahatların aparıldığı Azərbaycan Beynəlxalq Əmək Təşkilatı (BƏT) və BMT-nin Qadınlar Təşkilatı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının rəhbərlik etdiyi Bərabər əməkhaqqı üzrə Beynəlxalq Koalisiyaya (EPIC) üzv qəbul edilib.

EPIC qadınlar və kişilər arasında bərabər dəyərə malik iş üçün bərabər əməkhaqqı ödənişi prinsipinin qlobal səviyyədə təbliği və təşviqini həyata keçirir. Gender bərabərliyinin təmin olunması sahəsində dolğun qanunvericilik bazası və müsbət təcrübəsi olan Azərbaycan MDB regionunda ən çox BƏT-in standartlarını qəbul edən ölkələrdən biri olmaqla, gender bərabərliyi ilə bağlı mühüm beynəlxalq konvensiyalara da qoşulub.

Son illər ölkəmizdə qadın əməyi ilə bağlı aparılan islahatlar nəticəsində Dünya Bankının Qadın, Biznes və Hüquq 2024-cü il nəşrindəki hesabat-reytinqdə ölkəmizin indeksi 78,8-dən 85-ə yüksəlib. Dünya Bankı Qrupunun və Beynəlxalq Valyuta Fondunun 2025-ci il Yaz İclasında da Azərbaycanda aparılan bu islahatlar nümunəvi təcrübə kimi təqdim edilib.

*Mübariz ABDULLAYEV*

# İnkişaf salnaməsinin parlaq səhifəsi



## 2025-ci il Azərbaycanın iqtisadi həyatında saysız uğurlarla yadda qalıb

Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyat və sosial həyat sahələrində əldə olunmuş uğurlar Azərbaycanın 2025-ci ildə inkişaf salnaməsinin parlaq səhifələrindən biri kimi yadda qaldı.

Yola saldığımız il bir sıra sosial-iqtisadi yeniliklərlə zəngin oldu, iqtisadi artım dinamikası bir qədər də böyüdü. 2025-ci ilin yanvar-noyabr aylarında ölkəmizdə 116 milyard 320 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,6 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,8 faiz azalsa da, qeyri neft-qaz sektorunda isə 3,2 faiz artıb. Belə ki, ÜDM istehsalının 34 faizi sənaye, 10,6 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 7,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 6,5 faizi tikinti, 2,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,9 faizi informasiya və rabitə sahələrinin, 21,1 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,5 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 11 min 356,4 manata bərabər olub.

ÜDM-in əsas drayveri və ağırlıq mərkəzi qeyri-neft sektorunun payına düşüb. Belə ki, 116 milyard manatlıq əlavə dəyərin təxminən 70 faizi qeyri-neft mənbələrinin üzərində cəmləşib ki, bu da nominal ifadədə 80 milyard manata yaxın milli məhsul deməkdir. ÜDM-də əsas sahələrdən biri olan sənaye sektorunda məhsul həcmi 57,5 milyard manatı üstələyib. Qeyri neft-qaz sənayesində əlavə dəyər 4,8 faiz artıb. Bu amil də sənayeləşmənin əsas strukturlarının qeyri-neft sütunları üzərində inkişaf etdiyini təsdiqləyir.

**Xarici investisiya qoyuluşları artıb**

Azərbaycan iqtisadiyyatına daxili və xarici kapital qoyuluşlarında artım dinamikası davam etməkdədir. 2025-ci ilin yanvar-noyabr aylarında əsas kapitala 16 milyard 658,9 milyon manat məbləğində investisiya yönəldilib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz çoxdur. Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 8,5 faiz azalsa da, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 8,3 faiz artaraq ümumi sərmayə axıcılığını təmin edib. Bu dövr ərzində istifadə olunmuş investisiyanın 8,4 milyard manatı və ya 50,6 faizi məhsul istehsalı sahələrinə, 5,6 milyard manatı (33,7 faiz) xidmət sahələrinə, 2,6 milyard manatı (15,7 faiz) isə yaşayış evlərinin tikintisinə sərf olunub. Əsas kapitala yönəldilmiş investisiyaların 12,9 milyard manatını və ya 78 faizini daxili investisiyalar təşkil edib. Həmin sərmayələrin 76,2 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

Azərbaycana yatırılan birbaşa xarici investisiyaların həcmində də əhəmiyyətli artım qeydə alınıb. Cari ilin yanvar-sentyabr aylarında Azərbaycana xarici rezidentlər tərəfindən 4 milyard 736 milyon dollar birbaşa investisiya yatırılıb. Sərmayə portfelində birinci yeri 1 milyard 243 milyon dollarla Böyük Britaniya, növbəti yerləri 632 milyon dollarla Türkiyə, 543 milyon dollarla Cənubi Kipr, 384 milyon dollarla İsveçrə və 272 milyon dollarla İran tutub. Eləcə də xarici yatırım edən dövlətlər sırasında BƏƏ, Rusiya, ABŞ, Yaponiya, Macarıstan, Fransa və Hindistan sərmayədarlarının payı artıb.

Qeyd edilən dövrdə Azərbaycanın özü də sərmayədar ölkə kimi xarici ölkələrin iqtisadiyyatına 2 milyard 38 milyon dollar birbaşa investisiya yatırıb. Xaricə yönəldilən investisiyalarda əsas istiqamət İsrail olub və bu ölkəyə 542,6 milyon dollar həcmində sərmayə yatırılıb ki, bu da əsasən "Tamar" qaz yatağı layihəsi ilə bağlıdır. Türkiyəyə 289 milyon dollar, Birləşmiş Ərəb Əmirliklərinə 250 milyon dollar, Böyük Britaniyaya 176 milyon dollar, İtaliyaya isə 118 milyon dollar birbaşa xarici investisiya yatırılıb.

**Əhalinin gəlirləri artıb, inflyasiya sabit qalıb**

2025-ci ilin yanvar-noyabr aylarında əhalinin nominal gəlirlərində, bank əmanətlərində, ünvanlı sosial yardımın məbləğində, muzdlu işçilərin orta aylıq əməkhaqqında da artımlar qeydə alınıb. Əhalinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 8,1 faiz artaraq 80 milyard 747,2 milyon manat təşkil edib. Ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 782,4 min nəfər təşkil edib, onlardan 865,7 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 916,7 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib. Muzdla işləyənlərin 18,8 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 18,1 faizi təhsil, 14 faizi sənaye, 8,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,7 faizi tikinti, 6,3 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 4 faizi peşə, elmi və texniki fəaliyyət, 2,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,3 faizi maliyyə və sığorta fəaliyyəti, 14,3 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olanlardır.

Qeyd edilən dövrdə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,4 faiz artaraq 1086,3 manat təşkil edib. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

2025-ci ilin noyabr ayında istehlak qiymətləri indeksi 2024-cü ilin noyabr ayına nisbətən 5,5 faiz, o cümlədən qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 7,1 faiz, qeyri-qida məhsulları üzrə 2,5 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 5,7 faiz təşkil edib. Bu dövrdə xarici valyuta ehtiyatları 49 dəfə artaraq 83 milyard dollara çatıb.

**Büdcədə qeyri-neft yığımları 11 milyard manatı üstələyib**

2025-ci ilin yanvar-noyabr aylarında fiskal yığımların artımında da yüksək dinamika qeydə alınıb. Bu dövrdə xəzinədarlıq orqanları tərəfindən 1 milyon 436 mindən çox ödəniş tapşırığı icra edilib və dövlət büdcəsinin gəlirlərinin icrasında yüksək göstəricilər qeydə alınıb. Dövlət büdcəsinin gəlirləri 35 milyard 625,6 milyon manat təşkil edib ki, bu da 11 aylıq proqnozu 324,6 milyon manat və ya 0,9 faiz üstələyib. Büdcə gəlirlərində vergi orqanının xətti ilə daxilolmalar 15 milyard 310,5 milyon manat təşkil edərək proqnozdan 745,5 milyon manat və ya 5,1 faiz çox olub. Qeyri-neft-qaz sektorundan daxilolmalar 11 milyard 187,6 milyon manat olub, proqnoz 2,7 faiz artıq icra edilib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 8,7 faiz artıb.

Dövlət Neft Fondundan transfert isə 13 milyard 274,3 milyon manat təşkil edərək proqnoza qarşı 100 faiz icra edilib. Eyni zamanda, Dövlət Gömrük Komitəsi üzrə daxilolmalar 5 752,2 milyon manat təşkil edib.

Ötən 11 ayda dövlət büdcəsinin xərcləri 31 milyard 414,7 milyon manat məbləğində icra edilib ki, bu da ötən ilin anoloji dövrü ilə müqayisədə 376,6 milyon manat və ya 1,2 faiz çoxdur. Yanvar-noyabr ayları ərzində icmal büdcənin gəlirləri 43 milyard 855,2 milyon manat təşkil edib ki, bu da 11 aylıq proqnozu 2 milyard 526 milyon manat və ya 6,1 faiz üstələyib. İcmal büdcənin xərcləri isə 36 milyard 784,3 milyon manat məbləğində icra edilib ki, bu da ötən ilin 11 aylıq icra göstəriciləri ilə müqayisədə 1 milyard 397,6 milyon manat və ya 3,9 faiz çoxdur.

**Azərbaycanın investisiya reytinqi "BBB" səviyyəsinə yüksəlib**

Məhz bu tədbirlər sayəsində Azərbaycanın beynəlxalq miqyasda investisiya cəlbediciliyi yüksəlib. "Standart & Poor's" və "Moods" reytinq agentlikləri Azərbaycanın investisiya və kredit reytinqini artıraraq "BB+" səviyyəsinə qaldırıb. Eyni zamanda "Fitch Ratings" agentliyi Azərbaycanın yerli və xarici valyutada uzunmüddətli suveren investisiya reytinqini "pozitiv" proqnozu ilə "BBB" səviyyəsində təyin edib. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan inkişaf etmiş ölkə kimi dünyanın aparıcı investorlarının daim diqqət mərkəzindədir.

Beynəlxalq Valyuta Fondu (BVF) dünya ölkələrində investisiya cəlbediciliyi mühiti ilə bağlı hesabatında Azərbaycanı ən yaxşı ölkələr qrupunda qərarlaşdırıb. Belə ki, ölkəmiz ən yaxşı investisiya mühitinə malik "Top-7" qrupunda yer alıb. BVF-nin reytinqində xarici investorlar üçün əlverişli münbit iş şəraitinin yaradılması, bütün hüquqi təminatlarla əhatə olunması təqdir edilir.

Hazırda Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən xarici investisiyalı şirkətlərin sayı 7 mindən artıqdır. Təkcə 2024-cü ildə Azərbaycanda qeydiyyata alınmış kommersiya hüquqi şəxslərin təxminən 900-ü xarici investisiyalı şirkətlər olub.

Azərbaycan ilə Asiya İnkişaf Bankı ilə yeni beşillik əməkdaşlıq proqramı təsdiq edilib ki, bu da yeni investisiya təchizatına zəmin yaradır.

**Strateji tərəfdaşlarla əməkdaşlıqda yeni mərhələ**

Yola saldığımız il Azərbaycanın yaxın xarici tərəfdaşları ilə iqtisadi sahədə əhəmiyyətli sənədlərin imzalanması ilə də əlamətdar oldu. Prezident İlham Əliyevin avqustun 8-də Vaşinqtona səfəri zamanı Strateji Tərəfdaşlıq Xartiyasına dair İşçi Qrupunun yaradılması haqqında Memorandum imzalanıb ki, sənəd Azərbaycan və ABŞ arasında iqtisadi münasibətlərin yeni gündəliyini müəyyən edir. Memorandum iqtisadi-ticari-enerji sahəsində çoxistiqamətli konsepsiya olmaqla, əməkdaşlığın inkişafına təkan verməkdədir. Son 4 ayda hər iki dövlət tərəfindən ortaya qoyulan iradə bu istiqamətdə mühüm addımlar atıb, SOCAR və "ExxonMobil" korporasiyası arasında "Əməkdaşlıq haqqında Memorandum"un imzalanmasından sonra ABŞ-ın məşhur enerji korporasiyası Azərbaycanda yeni fəaliyyət planlarına start verib. Habelə ABŞ Azərbaycanda "yaşıl hidrogen" və bərpaolunan enerji mənbələrinin tədarükü və nəqli proseslərinə qoşulmaqdadır. Tərəflər "Beynəlxalq Sülh və Rifah naminə Tramp marşrutu"nun (TRIPP) reallaşması istiqamətində də birgə səyləri artırmaqdadır.

Azərbaycan Çinlə iqtisadi əməkdaşlığın yeni mərhələsi olan mühüm sazişlər imzaladı ki, onların sırasında bərpaolunan enerji sahəsində əməkdaşlığa dair 6 sənəd xüsusi əhəmiyyət kəsb edir. Bu sənədlər ümumilikdə 260 MVt gücündə günəş elektrik stansiyaları, 100 MVt-lıq üzən günəş elektrik stansiyası, 30 MVt gücündə batareya enerji saxlanc sistemi, dənizdə minimum 2 QVt gücündə külək elektrik stansiyasının inşası, daha 2 MVt gücündə külək enerjisi layihəsinin inkişafı, eləcə də bərpaolunan enerji və elektrik enerji sisteminin planlaşdırılması üzrə əməkdaşlığı əhatə edir. Eləcə də Çinlə respublikamız arasında qarşılıqlı vizasız gediş-gəliş rejimi qüvvəyə mindi.

Həmçinin, cari ildə Azərbaycan BƏƏ, Səudiyyə Ərəbistanı, Qətər, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstanla iqtisadi əlaqələrin yeni keyfiyyətinə dərin zəmin yaradan mühüm anlaşma memorandumları imzaladı.

**14 ölkənin qaz təminatçısı**

2025-ci ildə Azərbaycan region ölkələrinin və Avropa İttifaqının (Aİ) enerji təchizatında öz mövqeyini daha da möhkəmləndirib. Yanvar-noyabr ayları üzrə respublikamız xarici ölkələrə qaz nəqlini 5 faizdən çox artıraraq həcm baxımdan 25 milyard kubmetrə çatdırıb. Mavi yanacağın 13 milyard kubmetrə yaxını Avropa İttifaqı (Aİ) ölkələrinə, qalanı digər region ölkələrinə nəql edilib.

Azərbaycan cari ildə Ukrayna və Suriyaya qaz nəqlinə başlayıb. Bununla da, enerji tədarükü siyasətini şaxələndirən Azərbaycanın maye yanacaqla təchiz etdiyi ölkələrin sayı 14-ə çatıb.

Cari ilin mart ayında İğdır-Naxçıvan qaz kəməri istifadəyə verilib və Azərbaycan-Türkiyə enerji əməkdaşlığının yeni səhifəsi yazılıb. Sentyabr ayında İzmirdə keçirilən IV Enerji Forumu çərçivəsində isə Azərbaycan və Türkiyə arasında enerji tərəfdaşlığına dair yeni razılaşmalar əldə edilib, qardaş ölkənin TPAO şirkətinin "Şəfəq-Asiman" layihəsinə qoşulması rəsmiləşib. Dekabrda isə Bakıda keçirilən Azərbaycan-Türkiyə Birgə Hökumətlərarası Komissiyanın 12-ci iclasında Xəzərin Azərbaycan sektorundakı "Abşeron" yatağından qazın Türkiyəyə ixracına dair anlaşma əldə edilib.

**"Yaşıl enerji"də yeni hərəkat**

Yola saldığımız 2025-ci il enerji sahəsində, xüsusilə də "yaşıl enerji" sahəsində bir çox mühüm hadisələrlə yadda qalır. "Yaşıl dünya həmrəylik ili" çərçivəsində start verilən qərarlar "yaşıl enerji" sektorunda yeni müqavilələrin, anlaşma memorandumlarının imzalanması ilə nəticələndi. İyun ayında keçirilən Bakı Enerji Həftəsində dünyanın ən nəhəng enerji şirkətləri ilə ümumi gücü 200 MVt olan 3 günəş enerjisi layihələrinin reallaşdırılmasını nəzərdə tutan sənədlər imzalandı.

Energetika Nazirliyi ilə "Universal Solar Azerbaijan" MMC arasında ölkəmizdə ilk dəfə olaraq bərpaolunan enerji sahəsində keçirilmiş beynəlxalq hərrac mexanizmi əsasında reallaşdırılan 100 MVt gücündə "Qobustan" Günəş Elektrik Stansiyası (GES) layihəsi üzrə "Torpaq icarə müqaviləsi" imzalanıb. Azad edilmiş ərazilərin "yaşıl enerji zonası"na çevrilməsi məqsədilə həyata keçirilən təşəbbüslər çərçivəsində, Cəbrayıl rayonunda tikilməsi planlaşdırılan 2 günəş elektrik stansiyası üzrə də müqavilələr imzalanıb. Azad ərazilərdə inşa olunacaq günəş stansiyaları ilə bağlı "Norm" ASC ilə birgə müqaviləyə də imza atılıb. Bundan başqa Energetika Nazirliyi və "Maire Tecnimont S.p.A". arasında "Enerji Keçidi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nun müddətinin uzadılması məqsədilə sənədə müvafiq dəyişiklik edilməsi haqqında Protokol da imzalanıb. Eyni zamanda, cari ildə "yaşıl enerji"nin ixracını təmin edəcək "Xəzər-Qara dəniz-Avropa" dəhlizi istiqamətində mühüm addımlar atılıb, Azərbaycan-Gürcüstan-Rumıniya-Macarıstan hökumətləri arasında imzalanmış sazişə əsasən, Birgə Müəsssiə yaradılıb.

**Qarabağ və Şərqi Zəngəzurda quruculuq**

2025-ci ildə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası istiqamətində də mühüm uğurlar əldə edilib, proqramın ümumi icra faizi təqribən 80 faizi ötüb. Ümumilikdə, 2020-ci ildən bəri 2026-cı il də daxil olmaqla işğaldan azad olunmuş ərazilərin bərpasına büdcədən 25 milyard manatdan çox vəsait ayrılıb. Həmin vəsaitlərin böyük hissəsi infrastruktur layihələrinə yönəldilib.

Beş il ərzində Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilər üzrə 569 tədbirdə iştirak edib, müxtəlif təyinatlı 177 layihənin təməlini qoyub, 167 obyektin və infrastruktur layihəsinin açılışını edib. "İşğaldan azad edilmiş ərazilərin Ümumi Planı", 8 şəhərin Baş planı, 3 şəhərin isə Müfəssəl planı təsdiqlənib, Xankəndi, Xocalı, Ağdərə və Xocavənd şəhərlərinin Baş planları işlənilmə mərhələsindədir. Azad olunmuş ərazilərdə şəhər, qəsəbə və kəndlər üzrə 15 yaşayış məntəqəsinin ilkin mərhələdə inşası tamamlanmış, əhalinin yaşayışı, iqtisadi fəaliyyətə reinteqrasiyası təmin olunmuşdur. Hazırda 27 yaşayış məntəqəsinin tikintisi, 25 yaşayış məntəqəsinin təmir-bərpası həyata keçirilir. 21 yaşayış məntəqəsinin isə təməli qoyulub.

Qarabağda və Şərqi Zəngəzurda aidiyyəti dövlət qurumları və yerli şirkətlər tərəfindən aparılan minatəmizləmə fəaliyyəti nəticəsində 240 min hektardan çox ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib, 3 beynəlxalq hava limanı istifadəyə verilib, tikintisi nəzərdə tutulmuş ümumi uzunluğu 3501,6 kilometr olan avtomobil yolları üzrə 60 layihədən 16-sı tam, 1-i isə qismən icra edilib. Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksinin açılışı baş tutub. Avtomobil yolları üzərində 28 tuneldə qazma işləri, 392 körpü və 9 viadukun tikintisi artıq başa çatıb. Dəmir yollarının tikintisi ilə bağlı 49 körpünün tikintisi planlaşdırılıb, onlardan 42 körpünün inşası başa çatıb, 3 körpü istismara verilib. Qarabağda və Şərqi Zəngəzurda 38 su elektrik stansiyası, 4 su anbarı, 14 elektrik yarımstansiyası istismara buraxılıb, 6 magistral qaz xətti, 1000 kilometrdən artıq yüksək gərginlikli elektrik verilişi xətləri çəkilib, 8 şəhərə, 20 kəndə və 1 qəsəbəyə qazın verilməsi təmin olunub. Bölgədə 1 xəstəxana, 19 ümumi, 7 məktəbəqədər təhsil müəssisəsi istifadəyə verilib.

2025-ci il dekabrın 25-dək azad edilmiş ərazilərin bərpa olunmuş yaşayış məntəqələrinə 22 min nəfərdən çox 5500-ə yaxın ailənin qayıdışı təmin edilib. Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində 2152 tələbənin, dövlət və özəl sektorlarda işləyənlərin də sayı nəzərə alınmaqla bu ərazilərdə təqribən 65 min insan yaşayır və fəaliyyət göstərir.

Azad edilmiş ərazilərə köçürülən sakinlərin məşğulluğunun təminatı işləri 2025-ci ilin 11 ayında da davam etdirilib. Ümumilikdə ötən dövrdə həmin sakinlərdən artıq 7 minə yaxın şəxsin məşğulluğu təmin edilib, kiçik ailə biznesləri sahələri yaradılıb. Ağdam və Cəbrayıl rayonundakı "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları salınıb. Hər iki parkda 50 müəssisə rezident, 7 müəssisə isə qeyri-rezident kimi qeydiyyata alınıb.

İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın davamlılığının təmin edilməsi məqsədilə Prezident İlham Əliyev 2025-ci il 30 may tarixində imzaladığı sərəncama əsasən, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı" layihəsinin hazırlanması tapşırılıb.

Həmçinin, ölkəmizin yeni inkişaf hədəflərini müəyyən edən "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası", "2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "Böyük Qayıdışa dair II Dövlət Proqramı" və digər əhəmiyyətli proqramlar təsdiqlənib.

Cari il ərzində Azərbaycan digər uğurlara da imza atdı ki, onların hər birini sadalamağa uzun vaxt lazımdır. Ümumilikdə, yekun olaraq yola saldığımız 2025-ci il Azərbaycanın iqtisadi həyatında əlamətdar illərdən biri kimi tarixə həkk olunacaq. Prezident İlham Əliyevin liderliyi ilə inkişaf edən ölkəmizin tərəqqi və rifah ili kimi xatırlanacaq.

***ELBRUS CƏFƏRLİ***

# 2025-ci ilin yekunları: dəyişən dünya nizamının konturları

## Qlobal diplomatiyanın yenidən “oyandığı” ili arxada qoyuruq...

2025-ci il dünya tarixində ziddiyyətli, lakin bir o qədər də dönüş nöqtəsi olan hadisələrlə yadda qaldı. “İlan ili”nə daxil olarkən planetin müxtəlif nöqtələrində qanlı müharibələr davam edir, böyük güclər arasında kəskin rəqabət hökm sürür, beynəlxalq sistem isə dərin etimad böhranı yaşayırdı. 2024-cü ilin sonlarında formalaşan xaotik mənzərə qlobal təhlükəsizlik arxitekturasının iflasa uğradığını açıq şəkildə göstərirdi.

Lakin 2025-ci il gözlənilməz şəkildə yeni bir mərhələnin əsasını qoydu. Bu il dünya üçün təkcə müharibələrin statistikası ilə deyil, eyni zamanda diplomatik manevrlərin intensivləşməsi, iqtisadi prioritetlərin dəyişməsi və regional güclərin fəallaşması ilə xarakterizə olundu. Bir çox münaqişə zonasında silahların susdurulması, tərəflər arasında dialoq kanallarının açılması və yeni əməkdaşlıq formatlarının ortaya çıxması məhz 2025-ci ilin əsas xüsusiyyəti oldu.

Bu dəyişikliklərin mərkəzində isə ABŞ-da siyasi hakimiyyətin dəyişməsi, Donald Trampın yenidən prezident postuna qayıdışı və onun qlobal siyasətə gətirdiyi sərt, lakin praqmatik yanaşma dayanırdı. Eyni zamanda Yaxın Şərqdə, Avropada, Asiyada və Afrikada baş verən proseslər qlobal güc balansının tədricən yenidən formalaşdığını göstərdi. Azərbaycan isə bu proseslərdə təkcə regional deyil, artıq qlobal miqyasda mühüm aktor kimi çıxış edərək bir sıra istiqamətlərdə təşəbbüskar mövqe nümayiş etdirdi.

**“Birinci Amerika”: qlobal siyasi iqlimin dəyişməsi...**

Sözsüz ki, 2025-ci ilin ən mühüm siyasi hadisəsi, Donald Trampın yenidən ABŞ Prezidenti kimi fəaliyyətə başlaması oldu. Hətta Trampın gəlişinin 2025-ci ili qlobal sistem üçün “yenidən dizayn etdiyini” iddia edənlər belə var. Co Bayden administrasiyasının zəif və qeyri-müəyyən xarici siyasət kursundan sonra Trampın Ağ Evə qayıdışı Vaşinqtonun həm daxili, həm də beynəlxalq siyasətində kəskin dönüş yaratdı. Tramp ilk aylardan etibarən ABŞ-ın prioritetlərini açıq və sərt şəkildə bəyan etdi: Amerika üçün əsas məqsəd qlobal ideoloji liderlik deyil, iqtisadi üstünlük və milli maraqların maksimum qorunmasıdır.

Yeni tarif islahatları, daxili sərt iqtisadi-siyasi tədbirlər və beynəlxalq ticarət sisteminə yenidən baxış Trampın dünyaya verdiyi əsas mesaj idi - Tramp faktiki olaraq dünya ölkələrinə belə bir mesaj göndərdi: bundan sonra rəqabət tanklar və raketlər üzərindən deyil, ticarət balansları, enerji marşrutları və texnoloji üstünlüklər üzərindən aparılacaq.

Bu siyasət faktiki olaraq göstərdi ki, ABŞ bundan sonra rəqabəti hərbi-siyasi müstəvidən, ən əsası fərqli yollarla daxili siyasət arenasına müdaxilə formatından çıxararaq daha çox iqtisadi platformada aparmaq niyyətindədir. Beləliklə, yeni administrasiyanın əsas istiqamətlərindən biri qlobal iqtisadi münasibətlərin yenidən dizaynı oldu. “Ənənəvi dost” və “ənənəvi düşmən” anlayışları aktuallığını itirdi, yerini situativ tərəfdaşlıq və praqmatik əməkdaşlıq aldı. Şüar isə “birinci Amerika” kimi müəyyənləşdi.

Tramp administrasiyasının ən çox rezonans doğuran addımlarından biri Qrenlandiya ilə bağlı məsələ oldu. ABŞ Prezidenti bu mövzunu təkcə simvolik deyil, real strateji hədəf kimi gündəmə gətirdi. İl ərzində Qrenlandiyanın ABŞ-a inteqrasiyası istiqamətində diplomatik, iqtisadi və siyasi səylər artırıldı, ilin sonunda isə xüsusi elçinin təyin olunması Vaşinqtonun bu məsələdə nə qədər ciddi olduğunu nümayiş etdirdi. Bu addım ABŞ-ın Arktika bölgəsində uzunmüddətli geosiyasi planlarının tərkib hissəsi kimi dəyərləndirildi.

**Trampın sülh üzərində qurulan siyasəti**

2025-ci ilin qlobal gündəminin yekunlarını dəyərləndirərkən Donald Trampın sülh təşəbbüsləri xüsusilə diqqəti cəlb edir. Son 11 ay ərzində Tramp administrasiyası beynəlxalq münaqişələrin həlli istiqamətində fəal və bəzən qeyri-ənənəvi diplomatik xətt yürüdüb. Bu təmaslardakı yanaşma isə klassik çoxpilləli diplomatiyadan fərqli olaraq, birbaşa, açıq mesajlara və sürətli qərarlara əsaslanırdı. Tramp faktiki olaraq “sülh məhvəri” üzərində qurulmuş yeni bir xarici siyasət modeli formalaşdırdı. Bu modeldə əsas məqsəd müharibələri uzatmaq deyil, onları mümkün qədər tez iqtisadi razılaşmalarla əvəzləməkdir. Məhz bu yanaşma 2025-ci ilin qlobal siyasi gündəmində Tramp faktorunu həlledici elementə çevirdi.

Bu yanaşma bir çox hallarda effektiv nəticə verdi. Trampın vasitəçiliyi ilə müxtəlif regionlarda gərginliyin azalması, atəşkəslərin əldə olunması və siyasi dialoqun bərpası mümkün oldu. Beynəlxalq müşahidəçilərin fikrincə, 2025-ci ildə Trampın təşəbbüsləri nəticəsində azı 8 münaqişənin aktiv fazasının dayandırılması təmin edilib. Bu isə ABŞ Prezidentinin qlobal təhlükəsizlik arxitekturasına real töhfə verdiyini göstərir.

Əsas məqam isə ondan ibarət idi ki, Tramp bütün konfitaloji qarşıdurmalara son qoyarkən sülhü ideoloji deyil, iqtisadi və təhlükəsizlik maraqları prizmasından təqdim edib - həmin regionların təhlükəsizlik xəritəsini belə yenidən “cızıb”. Hətta bir çox politoloqlar Trampın “sülhpərvər missiyası”nı Amerikaya xidmət adlandırırdılar - iddia olunurdu ki, münaqişələrin davam etməsi ABŞ iqtisadiyyatı və qlobal bazarlar üçün risk mənbəyi olduğu üçün Tramp il ərzində qollarını çırmayıb bütün dünyada sülh üçün səy göstərib. Bu baxımdan 2025-ci il Trampın siyasi portretində hətta “sülhə doğru yol alan lider” obrazını daha da gücləndirdi.

**Yaxın və Orta Şərq: bölgənin yeni siyasi dizaynı...**

2025-ci il Yaxın və Orta Şərq üçün də tarixi dönüş mərhələsi oldu. 2024-cü ilin sonunda Suriyada Əsəd rejiminin süqutu regionda illərlə davam edən geosiyasi balansı dəyişdi. Suriyada müharibənin aktiv fazasının başa çatması yalnız bu ölkə üçün deyil, bütövlükdə Yaxın Şərq üçün yeni perspektivlər açdı. Uzun müddət xaos və qarşıdurma ilə assosiasiya olunan region tədricən sabitlik və bərpa mərhələsinə qədəm qoydu. Silahlı qarşıdurmaların azalması və siyasi keçid prosesinin başlaması Yaxın Şərqin gələcəyi üçün ümidverici siqnal oldu.

Suriyada yaranan yeni vəziyyət İsrail-Suriya münasibətlərinə də təsir göstərdi. Hərçənd tərəflər arasında tam normallaşmadan danışmaq tezdir, lakin gərginliyin azalması və təmasların artması region üçün müsbət siqnal oldu. Bu prosesdə Azərbaycanın rolu xüsusi qeyd edilməlidir. Bakı balanslaşdırılmış xarici siyasəti və etimad yaradan diplomatik təşəbbüsləri ilə tərəflər arasında dialoqun qurulmasına töhfə verdi. Azərbaycan Yaxın Şərqdə yeni siyasi reallıqların formalaşmasında neytral və etibarlı vasitəçi kimi qəbul olundu.

Bu mənada Yaxın və Orta Şərqdə 2025-ci il daha çox “postmünaqişə dövrünə keçid” ili kimi xarakterizə oluna bilər. Regionda prioritetlər tədricən təhlükəsizlikdən iqtisadi bərpa və əməkdaşlığa doğru yönəlməyə başladı. Təhlükəsizlik məsələləri hələ də aktual olsa da, əsas diqqət iqtisadi bərpa, enerji layihələri və regional əməkdaşlıq imkanlarına yönəldi. Bu da göstərdi ki, region uzunmüddətli müharibələrdən sonra yeni inkişaf mərhələsinə qədəm qoyur.

**Qəzzada sabitlik və beynəlxalq vasitəçilik modeli**

2025-ci ildə Yaxın Şərqin ən həssas problemlərindən biri olan Qəzza məsələsində ciddi irəliləyiş əldə olundu. Donald Trampın səyi ilə ortaya qoyulan sülh təşəbbüsləri sülh planını reallaşdırdı. Oktyabrın 13-də isə Şarm əl-Şeyxdə keçirilən Yaxın Şərq Sülh Sammiti uzun müddət davam edən diplomatik səylərin nəticəsi kimi yaddaşlara həkk olundu - ən diqqətçəkən məqam ondan ibarət idi ki, sülh sazişi birbaşa münaqişə tərəfləri olmadan, dörd əsas vasitəçi ölkə tərəfindən imzalandı. Həll planı 3 mərhələdən ibarət idi ki, artıq bu mərhələlər aktiv şəkildə bir -birini əvəz etməkdədir. Noyabrda BMT Təhlükəsizlik Şurası Qəzzada Beynəlxalq Sabitləşdirmə Qüvvələrinin (ISF) yerləşdirilməsi ilə bağlı ABŞ-ın qətnaməsini qəbul edib. ABŞ tərəfindən təqdim edilən mətndə İsrail və Misirlə əməkdaşlıq edəcək Beynəlxalq Sabitləşdirmə Qüvvələrinin (ISF) yerləşdirilməsi və orada keçid idarəetməsinin qurulması üçün mandatın verilməsi qeyd olunur. Bu isə prosesin hüquqi və institusional əsaslarını möhkəmləndirdi. HƏMAS-ın müəyyən şərtlər daxilində silahları təhvil verməyə hazır olduğunu bəyan etməsi isə vəziyyətin hərbi müstəvidən siyasi mərhələyə keçdiyini göstərdi. 2025-ci il Qəzza üçün münaqişədən çıxış modelinin formalaşdığı il oldu.




ABŞ Prezidenti Donald Trampın prosesə şəxsi nəzarəti və siyasi iradəsi bu razılaşmanın əldə olunmasında həlledici rol oynadı. Onun əvvəlcə İsrailə səfəri, daha sonra Misirdə keçirilən sammitdə liderlər qarşısında sülh planını təqdim etməsi beynəlxalq ictimaiyyətə açıq mesaj idi: Vaşinqton Qəzza probleminin həllində liderlik rolunu üzərinə götürür.

**Ukrayna-Rusiya müharibəsi: yorğunluq və dialoq mərhələsi**

Artıq dördüncü ilinə yaxınlaşan Rusiya-Ukrayna müharibəsi 2025-ci ildə də qlobal təhlükəsizliyə ciddi təhdid olaraq qaldı. Müharibənin miqyası və insan itkiləri bu qarşıdurmanın nə qədər dağıdıcı olduğunu bir daha nümayiş etdirdi. Müxtəlif beynəlxalq mənbələrə görə, təkcə 2025-ci ildə Rusiyanın 158 mindən artıq hərbçisi həlak olub, ümumi itkilər isə 1,2 milyonu keçib. Ukrayna tərəfinin itkiləri ilə bağlı rəsmi statistika açıqlanmasa da, qeyri-rəsmi mənbələrdə bu rəqəmlərin yüz minlərlə ifadə olunduğu bildirilir. Bir çox mənbələr isə Ukraynanın ümumi itki sayının Rusiyanı üstələdiyini yazırlar.

Lakin 2025-ci ili əvvəlki illərdən fərqləndirən əsas cəhət müharibə yorğunluğunun açıq şəkildə hiss olunması oldu. Həm Moskva, həm də Kiyev üçün uzunmüddətli hərbi qarşıdurmanın davam etdirilməsi ciddi iqtisadi və sosial risklər yaratmağa başladı. Bu fonda diplomatik təmaslar intensivləşdi. Əbu-Dabi, İstanbul, Vaşinqton, Cenevrə və digər şəhərlərdə keçirilən görüşlər münaqişənin siyasi həllinə ümidləri artırdı.

ABŞ-ın xüsusi nümayəndəsi Stiv Vitkoffun fəallığı tərəflər arasında dialoqun qurulmasında mühüm rol oynadı. Artıq müəyyən texniki və humanitar razılaşmaların əldə olunması 2026-cı ildə müharibənin başa çatması ehtimalını real ssenariyə çevirir.

**Avropa: parçalanma, böhran və yeni strategiya axtarışları...**

2025-ci il Avropa üçün daxili ziddiyyətlərin dərinləşdiyi il oldu. Qərb koalisiyasının çat verməsi, ABŞ-la fikir ayrılıqları və Ukrayna müharibəsinə yanaşmada fərqli mövqelər Avropanın siyasi birliyini sınağa çəkdi. NATO-nun maliyyələşdirilməsi, təhlükəsizlik öhdəlikləri və Kiyevə yardım məsələsində Vaşinqtonla Brüssel arasında yaranan ziddiyyətlər açıq şəkildə üzə çıxdı.

ABŞ-ın qarşıdakı illər üçün strateji planlarında Avropaya prioritet yer verməməsi qitəni yeni reallıqla üz-üzə qoydu. Avropa ölkələri getdikcə daha çox öz təhlükəsizlik və müdafiə sistemlərini müstəqil şəkildə qurmaq zərurəti ilə qarşılaşırlar. Bu isə Avropa İttifaqı daxilində yeni doktrina və strategiyaların hazırlanmasını aktuallaşdırdı.

2025-ci il Avropa üçün həm böhran, həm də özünü yenidən dərk etmə ili oldu. Qitə artıq ABŞ-a tam arxalanmadan, öz resursları və imkanları hesabına gələcəyini planlaşdırmağa məcbur qalır. Aİ genişlənmə siyasətini “Avropanın dərinləşməsi” kimi təqdim etsə də, əslində bu, həm də geosiyasi məkanın yenidən dizaynıdır. Bunu Avropa rəsmiləri özləri də dolayısı ilə təsdiq edirlər - qarşıdakı illərdə genişlənmə “real imkan” kimi dəyərləndirilir. Lakin bu “imkan” yalnız siyasi deyil, həm də strateji və iqtisadi hesablamaların nəticəsidir. Görünən odur ki, Avropa İttifaqı genişlənmə ilə eyni zamanda özünü yenidən təsdiqləmək istəyir.

**Asiya: yeni siyasi gündəm, yeni siyasi münasibətlər sistemi...**

2025-ci ildə Asiya qitəsində nisbətən sabitlik hökm sürdü. Qlobal qarşıdurmalar fonunda xüsusilə Orta Asiya daha çox iqtisadi əməkdaşlıq və ticarət marşrutlarının genişləndirilməsi ilə gündəmə gəldi. Azərbaycanın təşəbbüsləri və liderliyi ilə irəli sürülən yeni iqtisadi strategiyalar regionu əsas tranzit və ticarət mərkəzlərindən birinə çevirdi. Zəngəzur dəhlizi (TRİPP) bu mənada xüsusi əhəmiyyət daşıdı və Şərq-Qərb əlaqələrinin güclənməsində əsas rol oynadı.

İl ərzində baş verən Pakistan-Hindistan qarşıdurması region üçün ciddi risk yaratsa da, ABŞ-ın aktiv müdaxiləsi ilə eskalasiyanın qarşısı alındı. Bu hadisə göstərdi ki, böyük münaqişələrin belə diplomatik yollarla həlli mümkündür. Asiya 2025-ci ildə qlobal sabitliyin əsas dayaqlarından biri kimi çıxış etdi.

Təəssüf ki, eyni fikirləri aylardır davam edən Pakistan - Əfqanıstan qarşıdurması haqqında demək olmadı - dekabrda İslamabad və Kabil arasında baş tutan sərhəd danışıqlarında razılaşma əldə olunmadı. Ər-Riyadda Səudiyyə Ərəbistanının vasitəçiliyi ilə keçirilən qapalı danışıqlar nəticəsiz qaldı.

**Qlobal Cənub: yeni real güc...**

2025-ci il Afrika qitəsində neokolonializmə qarşı mübarizənin yeni mərhələyə keçdiyi il kimi yadda qaldı. Fransa, Belçika və digər keçmiş müstəmləkəçi dövlətlərin siyasi və iqtisadi təsirinə qarşı çıxan Afrika ölkələri daha müstəqil qərarlar qəbul etməyə başladılar. Daha çox Əlcəzair, Ruanda, Konqo kimi dövlətlər bu mübarizədə ön plana çıxdılar. Bu proses yalnız siyasi deyil, eyni zamanda iqtisadi suverenliyin bərpası baxımından da əhəmiyyətli oldu. Azərbaycanın təşəbbüsləri, xüsusilə Bakı Təşəbbüs Qrupunun fəaliyyəti Afrika ölkələri üçün alternativ əməkdaşlıq modeli təqdim etdi. Bakı Afrika dövlətlərinin beynəlxalq arenada səsinin eşidilməsinə töhfə verən etibarlı tərəfdaş kimi qəbul olundu.

2025-ci ildə ümumən Qlobal Cənub anlayışı real gücə çevrildi. İnkişaf etməkdə olan ölkələr artıq beynəlxalq proseslərin passiv iştirakçısı deyil, yeni dünya nizamının formalaşmasında aktiv rol oynayan aktorlardır. Azərbaycan bu platformanın güclənməsində xüsusi fəallıq göstərən dövlətlərdən biri oldu.

Qlobal Cənub ölkələrinin iqtisadi potensialı, demoqrafik üstünlükləri və resursları beynəlxalq balansı dəyişməyə başladı. 2025-ci il bu prosesin əsaslarının qoyulduğu və gələcək onilliklər üçün yeni güc mərkəzlərinin formalaşdığı il kimi tarixə düşdü.

**Güc siyasətindən rasional dialoqa gedən “yol”**

Beləliklə, 2025-ci il qlobal miqyasda daha çox qarşıdurmaların dayandırılması, diplomatiyanın yenidən ön plana çıxması və yeni siyasi-iqtisadi balansların formalaşması ilə yadda qaldı. Dünya hələ də risklərlə doludur, lakin bu il göstərdi ki, rasional siyasət və əməkdaşlıq müharibəni əvəz edə bilər.

2026-cı ilin daha az münaqişə, daha çox dialoq və sabitlik ili olacağına ümidlər artıb. Qlobal sistem yeni mərhələyə qədəm qoyur və bu mərhələdə sülh artıq seçim deyil, zərurət kimi qəbul olunur. Qarşıdan gələn il dünyanın bütün xalqları üçün sülh və əmin-amanlıq gətirsin.

***Pərviz SADAYOĞLU***

# İnternetin sürətinə təsir edən 10 kritik faktor...

## Problemin həll yolları müzakirə olunub...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

***Yeganə***

İnternet sürəti həm təhsil, həm iş, həm də əyləncə üçün əsas amillərdən biridir. Bəzən eyni tarifdən istifadə edən iki fərqli istifadəçi tamamilə fərqli sürət nəticələri ilə qarşılaşır. Bunun səbəbi internet sürətinə təsir edən bir çox texniki və qeyri-texniki amillərin olmasıdır.

Azərbaycanın telekommunikasiya və poçt xidmətləri üzrə tənzimləyici qurumu İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi (İKTA) ilə internet provayderlər arasında geniştərkibli görüş keçirilib. Görüş zamanı ölkədə internet xidmətlərinin keyfiyyətinin daha da yaxşılaşdırılmasına həsr olunan fikir mübadiləsi aparılıb.

Agentlikdən verilən məlumata görə, görüşdə internetin sürətinə təsir edən amillər, beynəlxalq təcrübə, İKTA-nın həyata keçirdiyi araşdırmalar və “İnternet sürətinə təsir edən 10 kritik faktor” üzrə tövsiyələr müzakirə edilib. Bununla yanaşı, İSP-lərin (İnternet xidmət provayderi) növbəti illər üçün planlaşdırmalı olduqları modernizasiya tədbirləri diqqət mərkəzində olub.

**Ölkəmizin fiber infrastrukturu genişlənib**

İKTA nümayəndələri bildiriblər ki, son illərdə ölkədə fiber infrastrukturu genişlənib, hər bir evə fiber-optik xəttin çəkilişi təmin olunub. Ancaq internet xidmətinin sürətinin inkişaf etmiş ölkələr səviyyəsinə çatdırılması üçün bir sıra işlər də görülməlidir. İnternet keyfiyyətinə təsir edən amillərin yalnız operator şəbəkəsindən ibarət olmadığı, həmçinin modem parkı, “Wi-Fi” sistemlərinin tənzimlənməsi, marşrutlama (routing), beynəlxalq çıxışlar, məzmun çatdırılma şəbəkələri (Content Delivery Network - CDN), evdaxili siqnal zəifləməsi və “mesh” texnologiyalarının tətbiqinin də real nəticəyə ciddi təsir etdiyi vurğulanıb.

Görüşdə İKTA rəsmiləri “İnternet sürətinə təsir edən 10 kritik faktor” adlı təqdimatla çıxış edib. İnternetin keyfiyyətini yüksəldə biləcək 10 əsas istiqamət izah edilib, operator və provayderlərin fəaliyyətlərində bu amilləri nəzərə almalarının zəruriliyi vurğulanıb.

**İnternetin sürətinə təsir edən faktorlar...**

Qeyd olunan 10 kritik faktora aşağıdakılar daxildir:

1. Fiber “backhaul” və magistral xətlərin modernizasiyası. Şəbəkənin “əsas skelet”inin (Backhaul) modernizasiyası aparılmadan uzunmüddətli dayanıqlılıq qazanılmır. İnternet trafiki ilk növbədə ölkə daxilində yerləşən fiber xətlər üzərindən ötürülür. Bu xətlərdə ötürmə tutumu kifayət qədər olmadıqda sürət azalması müşahidə oluna bilər. İSP-lər fiber xətlərin ötürmə tutumlarının artırılması istiqamətində tədbirlər görməlidir.



2. Evdaxili “Wi-Fi” sistemlərinin optimallaşdırılması. Beton divarlı evlərdə “Wi-Fi” siqnalı 50-80 faiz zəifləyə bilir. Modem düzgün yerləşdirilmədikdə və ya köhnə texnologiyadan istifadə edildikdə yüksəksürətli internet paketləri belə real nəticə vermir. Bu səbəbdən “Wi-Fi 6”, “Wi-Fi 6E” və “mesh” sistemlərinin tətbiqinin vacibliyi vurğulanıb.

3. Modemlərin düzgün tənzimlənməsi (2.4 və 5 GHz SSID eyniliyi). Tədqiqatlar göstərir ki, sürətlə bağlı şikayətlərin 60-70 faizi modemlərin düzgün tənzimlənməməsindən qaynaqlanır. Xüsusilə 2.4 və 5 GHz tezlikləri üçün fərqli ad və şifrlərdən istifadə edildikdə istifadəçi avtomatik olaraq aşağısürətli 2.4 GHz şəbəkəsində qalır. Halbuki eyni şəbəkə adı və eyni şifr tətbiq edildikdə cihazlar avtomatik olaraq daha sürətli bağlantıya qoşula bilir.

4. Marşrutlanmanın (routing) səmərəliliyinin artırılması. Beynəlxalq trafikə çıxış və marşrutların optimallaşdırılması gecikməni xeyli aşağı sala bilər. Trafikin daha qısa və səmərəli marşrutlar üzrə yönləndirilməsi gecikməni azaldır və interneti daha stabil edir. Bu məqsədlə əsas “Backbone” və şəhərdaxili şəbəkələrin 100G və 400G texnologiyalarına keçirilməsi vacib hesab olunur.

5. Əlavə CDN-lərin yerləşdirilməsi, internet trafikində CDN payının artırılması. “YouTube”, “TikTok”, “Instagram”, “Meta” və digər platformalar kontentinin ölkə daxilində saxlanılması sürəti birbaşa yüksəldir. Məlumatlar uzaq ölkələrdən deyil, yerli serverlərdən ötürüldükdə videolar daha tez açılır və fasilələr azalır. Bu məqsədlə İSP-lər 3-5 illik trafik həcmi inkişafı proqnozunu işləməli, internet trafikində CDN payının 65-75 faizə qaldırılmasını təmin etməlidir.

6. Pik saatlarda yüklənmənin optimallaşdırılması. Saat 20:00 - 23:30 aralığında internetdən istifadə kəskin artır. Bu dövrdə şəbəkənin düzgün idarə edilməməsi sürətin azalmasına səbəb ola bilər. Buna görə də pik saatlarda yüklənmənin balanslaşdırılması xüsusi əhəmiyyət daşıyır. Pik saat sindromunun tam aradan qaldırılması məqsədilə axşam saatlarında internetin sabitliyini artıran texniki optimallaşmalar aparılmalıdır.

7. GPON və XGS - PON texnologiyalarının geniş tətbiqi, 10 Gbit/s texnologiyalara keçid. Mütəxəssislər XGS - PON kimi yeni nəsil fiber texnologiyalarına keçidi vacib sayırlar. 10 Gbit/s sürət imkanına malik yeni nəsil fiber texnologiyanın kommersiya istifadəsinə verilməsinə, yüksək sürət tarif paketlərinin kütləvi təklif edilməsinə başlanılmalıdır.

8. Şəbəkə monitorinqi və real vaxt rejimində analiz sistemlərinin tətbiqi. Tıxac nöqtələrinin, performans zəifliklərinin avtomatik aşkarlanması və operator panelində görünməsi çətinliklərin preventiv olaraq aşkarlanmasına və şikayət formalaşmadan aradan qaldırılmasına xidmət edir. Real vaxt rejimində şəbəkə monitorinq sistemlərinin tətbiqi ilə preventiv olaraq avtomatik zədə və performans zəifliklərinin aşkarlanması və şəbəkə yüklənməsinin proqnozlaşdırılması texnologiyalarının tətbiqi genişləndirilməlidir.

9. Standartlaşdırma və texniki tələblərin yenilənməsi. Modem standartı (“Wi-Fi 6” minimum tələbi), “SSID” qaydaları, CDN hostinq qaydaları və digər normativlərin tətbiqindən ibarətdir. İnternet sürətinin minimum həddinin müəyyənləşdirilməsinə, “Wi-Fi 4 və 5” nəsil modemlərin dövriyyədən çıxarılmasına, “Wi-Fi 6” modemlərin geniş tətbiqinə başlanılmalıdır.

10. İstifadəçilərin maarifləndirilməsi. Evdaxili şəbəkənin düzgün qurulması üzrə geniş ictimai təlimatlar hazırlanmalı, aktiv maarifləndirmə işləri aparılmalıdır.

# 2025-ci ildə qlobal iqtisadiyyatın mənzərəsi

2025-ci il qlobal iqtisadiyyatda bir çox problemlərin yaşanması ilə yadda qaldı.

Cari ildə qlobal iqtisadi mühit bir sıra xarici amillər, xüsusilə də geosiyasi gərginliklər, ticarət və logistika sahəsində məhdudiyyətlər, eləcə də silahlı münaqişələr fonunda artan qeyri-müəyyənliklə xarakterizə olundu. İlin ilk rübündə aparıcı birjalarda müxtəlif aktivlərin və bazar indekslərinin dəyərindəki zəif artım tempi ilin ikinci rübündə daha da aşağı temp nümayiş etdirdi. Beynəlxalq ticarət əlaqələrində təzyiqlərin artması, əsasən də proteksionizm meyilləri, neft və digər əmtəə məhsullarına qlobal tələbin zəifləməsi, habelə ABŞ tərəfindən tətbiq edilən yeni tarif qərarları maliyyə bazarlarında kifayət qədər güclü dalğalanmalar yaratdı.



Dünya İqtisadi Forumunun 2025-ci il üzrə “Qlobal Risk Hesabatı”na əsasən, müxtəlif ölkələri təmsil edən 900 ekspert arasında keçirilmiş sorğu nəticəsində silahlı münaqişələr, ekstremal hava hadisələri və geoiqtisadi qarşıdurmalar cari ildə qlobal böhrana səbəb ola biləcək əsas risklər kimi müəyyən edilib.

Qlobal iqtisadi mühitdə baş verən fraqmentasiyaları nəzərə alan beynəlxalq institutlar, o cümlədən Dünya Bankı tərəfindən iyunda açıqlanan “Qlobal iqtisadi perspektivlər” hesabatına əsasən, cari il üzrə zəif iqtisadi artım proqnozu elan edildi. Nəticədə, qlobal iqtisadi artım göstəricisi yanvar

## Dünya Bankı və Valyuta Fondunun bədbin proqnozu

ayında açıqlanmış ilkin proqnoza nisbətən 0,4 faiz bəndi azaldılaraq 2,3 faiz səviyyəsində qiymətləndirildi. Eləcə də Beynəlxalq Valyuta Fondunun (BVF) iyul ayında dərc etdiyi “Dünyanın iqtisadi icmalı” sənədinə əsasən, cari il üzrə qlobal iqtisadi artım 3 faiz səviyyəsində fərz edilməklə bəyan olunub.

Hər iki qurumun artım proqnozları yüksək tarif gözləntiləri fonunda qabaqlayıcı tədbirlərin görülməsi, effektiv tarif dərəcələrinin azalması, ABŞ dollarının zəifləməsi, eləcə də güclü iqtisadiyyata malik ölkələrdə tətbiq edilən və gözlənilən fiskal stimullaşdırma tədbirləri ilə izah olunur.

2025-ci ildə qlobal inflyasiya proqnozları inkişaf etməkdə olan ölkələrdə ticarət mallarına zəif qlobal tələbat səbəbindən bir qədər aşağı salınsa da, inkişaf etmiş ölkələrdə, xüsusilə də ABŞ-da nəzərəçarpacaq dərəcədə yuxarıya doğru yenilənib. BVF-in 2025-ci ilin iyul hesabatında cari il üzrə qlobal inflyasiya göstəricisi 4,2 faiz, 2026-cı il üzrə isə 3,6 faiz səviyyəsində qiymətləndirilib.

Sadalanan faktorların iqtisadi fəaliyyətə və əmtəə qiymətlərinə əhəmiyyətli təsiri nəzərə alınaraq 2024-cü ildə 3,4 faiz təşkil edən qlobal mal və xidmətlər üzrə ticarətin artım tempi cari ildə BVF tərəfindən 2,6 faiz, DB tərəfindən isə 1,8 faiz səviyyəsində proqnozlaşdırılıb.

2025-ci ildə inflyasiya müxtəlif regionlar üzrə sabit qalsa da, əsas inkişaf etmiş ölkələrdə artıb. Cari ilin ötən 3 rübündə ABŞ-da illik inflyasiya səviyyəsi 3 faiz olub. Avrozonada isə 2 faizdən 2,5 faizə yüksəlib. Rusiyada illik inflyasiya 2025-ci ilin noyabr ayında 8,9 faiz səviyyəsində olub ki, bu da son 18 ayın ən aşağı rəqəmidir. Lakin bu göstərici hələ də Mərkəzi Bankın 4 faizlik hədəfindən xeyli yüksəkdir. Türkiyədə isə cari ilin 10 ayı ərzində inflyasiya 34 faiz təşkil edib.

## BMT-nin xəsis artım proqnozları

Birləşmiş Millətlər Təşkilatı (BMT) isə 2025-ci ildə qlobal iqtisadi artım səviyyəsinin 2,6 faizə qədər azaldı. Təşkilatın Ticarət və İnkişaf üzrə Konfransının (UNCTAD) yeni hesabatında qeyd edilir ki, qlobal səviyyədə artan maliyyə dəyişkənliyi və geosiyasi qeyri-müəyyənliklər fonunda qlobal iqtisadi artım zəifləyir. Ehtimallara görə, qlobal iqtisadi artım 2024-cü ildən başlayaraq qlobal ticarət və investisiyalar sektorunda maliyyə bazarı iştirakçıları təzyiqlərlə üzləşir. Maliyyə bazarlarında baş verən bu dəyişikliklər qlobal ticarətə real iqtisadi fəaliyyət qədər güclü təsir göstərir və maliyyə sektorları arasında balansda qırılmalar baş verir.

UNCTAD ekspertlərinin qənaətinə görə, dollar likvidliyi və transsərhəd ödəniş sistemləri də beynəlxalq ticarət fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edir. Maliyyə kanallarından bu dərin asılılığın artması ticarəti qlobal maliyyə və pul şərtləri ilə sıx əlaqələndirir. Məsələn, əsas maliyyə mərkəzində faiz dərəcələrində və ya investor əhval-ruhiyyəsində dəyişikliklərin baş verməsi dünyada ticarət həcmlərinə ciddi təsirlər göstərir. Nəticədə, maliyyə sıxıntıları və kredit əldə etmək imkanlarının məhdudluğu inkişaf etməkdə olan ölkələrdə maliyyə təzyiqləri şəraitində ticari-iqtisadi dövriyyələrə xələl gətirir.

**Cədvəl 1. Dünya iqtisadiyyatı ilə bağlı aparıcı beynəlxalq təşkilatların proqnozları**

| Makroiqtisadi göstəricilər | BVF | | DB | |
|---|---|---|---|---|
| | 2025 | 2026 | 2025 | 2026 |
| Qlobal ÜDM artımı | 3,0% | 3,1% | 2,3% | 2,4% |
| ▪ İnkişaf etmiş ölkələr üzrə | 1,5% | 1,6% | 1,2% | 1,4% |
| ▪ İnkişaf etməkdə olan ölkələr üzrə | 4,1% | 4,0% | 3,8% | 3,8% |
| İnflyasiya | 4,2% | 3,6% | | |
| ▪ İnkişaf etmiş ölkələr üzrə | 2,5% | 2,1% | - | - |
| ▪ İnkişaf etməkdə olan ölkələr üzrə | 5,4% | 4,5% | - | - |
| Qlobal ticarətin həcmi | 2,6% | 1,9% | 1,8% | 2,4% |
| Qlobal əmtəə qiymətlərinin artım tempi | | | | |
| ▪ Qeyri-enerji əmtəə qiymətləri | 7,9% | 2,0% | 10,3% | 6,8% |
| ▪ Neft qiyməti | -13,9% | -5,7% | -13,8% | -19,8% |

**Qrafik 1. “Brent” markalı neftin 1 barelinin proqnozlaşdırılan orta illik qiyməti, ABŞ dolları ilə**




*Qeyd: BVF-də UK Brent, West Texas Intermediate (WTI) və Dubai Fateh neft brendlərinin orta qiyməti götürülür*

## Neftə tələb azalıb, qiymət ucuzlaşıb

Cari ildə formalaşan qlobal iqtisadi meyillər dünya üzrə xammal bazarlarına da təsirsiz qalmadı, 2025-ci ilin fevral ayından etibarən əmtəə qiymətlərində enmə tendensiyası müşahidə olundu. Dünya Bankının məlumatlarına əsasən cari ildə xammal qiymətlərinin orta hesabla 10 faiz azalması, 2026-cı ildə isə bəzi enerji və metal məhsullarının istehsalının genişlənməsi, habelə kənd təsərrüfatı məhsullarında təklif məhdudiyyətlərinin yumşaldılması fonunda azalmanın səngiyərək 6 faizə enməsi proqnozlaşdırılır. Bununla yanaşı, “OPEC+” ölkələrinin xam neft hasilatında artım və qlobal neft tələbinin azalması gözləntiləri səbəbindən neft qiyməti ilə bağlı azalma dinamikası fərz edilir. Digər tərəfdən, təbii qaz qiymətlərinin bu il əhəmiyyətli dərəcədə artması gözlənilir. Artım əsasən ABŞ-da təbii qaz qiymətlərinin 50 faizdən çox yüksəlməsi ilə bağlıdır. Avropada isə qiymətlər son aylarda bir qədər azalıb ki, bu da noyabr-dekabrda müşahidə edilən mülayim hava şəraiti və yetərli ehtiyatların mövcudluğu ilə izah olunur. Bununla belə, ABŞ-da mayeləşdirilmiş təbii qaz (LNG) ixracının davamlı struktur genişlənməsi təbii qaz qiymətlərinə artım təzyiqini qorumaqdadır.

# Köhnə ildən incikliyimiz, yeni ildən umacağımız

## 2025-ci ilin ədəbi yekunlarına dair qısa xülasə



Hər gələn il özüylə nəsə gətirir də, aparır da. Bu baxımdan 2025-ci il də sələflərindən geri qalmadı, kiminsə doğum ili, kiminsə uğur ili, kiminsə də ölüm ili oldu.

İlin ədəbi yekunlarına nəzər salsaq, il boyunca gənc, enerjili qələm adamlarının söz sənətimizə üz vermiş itkilərin yerini doldurmağa çalışdıqlarını görərik. Bu da təbiidir, çünki ədəbiyyatda varislik prinsipi çox vacibdir, sənətin sirləri, ustalıqları, peşəkar fəndləri nəsildən-nəslə ötürülməsə, bundan da ziyadə, inkişaf etdirilməsə, o sənətin yaşamaq, yaşatmaq şansı da minimuma düşər.

Hər il olduğu kimi bu il də ədəbiyyatımızın yaddaşında həm itkilər, həm qazanclar ili kimi qaldı. Qocaman yazıçımız, bir zamanlar bestseller olmuş “Vicdan susanda” romanının müəllifi Vidadi Babanlı, təəssüf ki, yüzü başa vura bilmədi, avqustun 16-da 98 yaşında dünyadan köçdü. Ümumən yayın son ayı ədəbi mühitimiz üçün ağır itkilərlə yadda qaldı. Avqustun 3-də xalq yazıçısı, şöhrəti ölkəmizin hüdudlarını çoxdan aşmış nasir, dramaturq, “Mahmud və Məryəm”, “Ağ dəvə”, “Ölüm hökmü”, “Baş” romanlarının müəllifi Elçin - 1943-cü ildə başqa bir məşhur yazıçımızın ailəsində dünyaya göz açmış, uzun illər baş nazirin müavini vəzifəsində çalışmış Elçin İlyas oğlu Əfəndiyev 82 yaşında bizə əlvida dedi. “İstiqlal” ordenli yazıçı vəfatının ertəsi günü Birinci Fəxri Xiyabanda dəfn olundu.

Həmin ayın 19-da isə görkəmli şairimiz Məmməd İsmayıl uzun sürən xəstəlikdən sonra dünyasını dəyişdi. Şair illərlə qardaş Türkiyədə yaşayıb fəaliyyət göstərmişdi. Məmməd İsmayıl atasız böyümüşdü, 1939-cu il təvəllüdlü gələcək şair hələ körpəykən atası İkinci Dünya müharibəsi cəbhələrində həlak olmuşdu. Cəfakeş anası həmin vaxt gənc olsa da, yenidən ailə qurmamışdı, bircə övladını təkbaşına böyüdüb boya-başa çatdırmışdı, onun şair, ziyalı kimi yetişməsində əvəzsiz rol oynamışdı. “Evinin yanında ev tikdim, ana, Qəbrinin yanında qəbrim olaydı” deyən şair öz vəsiyyətinə uyğun olaraq doğma Əsrik kəndində, anasının qonşuluğunda torpağa tapşırıldı.

70 illiyini qəzetimizdə “Sözü özünə bənzəyən şair” adlı yazıyla qeyd elədiyimiz Əlisəmid Kür də bu il uzun sürməyən xəstəlik nəticəsində 71 yaşında dünyasını dəyişdi, doğma Salyan şəhərinin qəbiristanlığında, atası Cəfər Mehdinin yanında dəfn olundu. Yaxşı ki, ölümündən bir neçə ay əvvəl oğlu Qorqudun toyunu görmək şairə qismət oldu. Əlisəmidin cavanlıq dostu, şair həmkarı, 1957-ci il təvəllüdlü Kəramət Şükürov üçün də bu il sonuncu il oldu, şairin ürəyi küçədə yeridiyi yerdəcə qəfil dayandı.

Salyan torpağının daha bir yetirməsi - istedadlı gənc şair Həsən Kürün də ömrünə bu il son qoyuldu. Həsən intihara cəhd göstərmişdisə də, sağ qalmışdı, həkimlər onun sağlamlığının bərpası üçün aylarla çalışmışdılar. Ancaq təəssüf ki, aldığı xəsarətlər axırda onun həyatını itirməsiylə nəticələndi.

1972-ci ildə Bakının Buzovna qəsəbəsində doğulmuş, ötən əsrin doxsanıncı illərində birinci Qarabağ müharibəsinin iştirakçısı olmuş, klassik üslubda qəzəllər yazan şair Arif Buzovnalı da uzun sürən xəstəlikdən sonra bu ilin payızında 53 yaşında dünyasını dəyişdi.

Ancaq başa çatmaqda olan ilimiz yalnız ölüm-itim xəbərlərindən ibarət deyil. Görkəmli yazıçımız Saday Budaqlının noyabrın 13-də yetmiş yaşı tamama yetdi, yubiley münasibətiylə yazıçının “Fevral” povesti haqqında qəzetimizdə geniş yazı dərc olundu.

Bu il ədəbi mühitimizdə xüsusilə də gənc yazıçıların maraqlı əsərləri, yeni kitablarıyla yadda qaldı, bu kitablardan bəziləri dövri mətbuat səhifələrinfə, AMEA-nın Ədəbiyyat İnstitutunda ayrıca müzakirəyə çıxarıldı, haqqında rəylər verildi. Ədəbiyyatşünaslar, tənqidçilər gənc qələm sahiblərimizin ədəbi uğurlarını gözdən qaçırmadılar, onların yaradıcılığındakı müsbət cəhətləri ürək genişliyi ilə xüsusi vurğuladılar. Gənc yazıçıların uğurlu əsərləri sırasında Nadir Yalçının “Balıqçılar”, Orxan Həsəninin “Anka”, Vüqar Vanın “Qaraltı”, Orxan Cuvarlının “Musson küləkləri” hekayəsinin adını ayrıca çəkməyi lazım bilirik, çünki bu əsərlər söz xiridarları tərəfindən ədəbiyyatımıza son illərdə gəlmiş ən gənc nəslin parlaq nailiyyətləri kimi qiymətləndirildi. Deyilənlərə adını çəkdiyimiz müəlliflərdən O.Həsəninin “Müharibəni gözləyərkən”, V.Vanın “Hardasa olardı 13-14 yaşım” romanlarını, N.Yalçının “Lal ev” hekayələr kitabını da əlavə etmək yerinə düşər.

Ümid eləyək ki, astanasında durduğumuz növbəti 2026-cı il söz sənətimiz, ümumən mədəniyyətimiz, incəsənətimiz üçün daha böyük töhfələrlə yadda qalacaq. Mədəniyyət Nazirliyinin yeni təsis etdiyi, ilk qalibi növbət ilin sonlarında elan olunacaq Kitab Mükafatı da, şübhəsiz, ədəbiyyatımızın inkişafına, yazıçılar arasında sağlam rəqabət mühitinin formalaşmasına böyük stimul verəcək. Bu ümidlərlə qarşıladığımız yeni təqvim ilinin qədəmləri xoş olsun, ədəbiyyatımıza, xalqımızın söz yaddaşına yeni zənginliklər, təzə uğurlar gətirsin!

***Toğrul***

## ABŞ-Çin ticarət müharibəsi qlobal işsizliyə təsir edib

ABŞ və Çin arasında ticarət münasibətlərində gərginliklər də qlobal iqtisadiyyata təsir edib. Ticarət qarşıdurmalarını izləyən investorlar ölkədə ümumi istehlak xərclərinin azalmasını, qiymətlər isə artmağa davam etdiyini, hətta bəzi rayonlar resurs xərclərinin daha sürətli artımının qeydə alındığını nəzərə alaraq sərmayə planlaşdırmasında tərəddüdlər yaşadıqlarını bildirilər.

Cari ilin ötən 11 ayında dünya ölkələrində işsizlik səviyyəsi müxtəlif meyillər nümayiş etdirib. Ötən ilin eyni dövrü ilə müqayisədə işsizlik səviyyəsi Türkiyə, Hindistan və Rusiyada azalıb, Avrozonada sabit qalıb, Birləşmiş Krallıq, Yaponiya və Çində isə artıb. Bu səbəbdən Beynəlxalq Əmək Təşkilatının (BƏT) 2025-ci il üçün qlobal məşğulluq artımı proqnozunu 1,7 faizdən 1,5 faizə endirib. Bu reviziya davam edən geosiyasi qeyri-müəyyənliklər və ticarət gərginlikləri nəticəsində qlobal ÜDM artımının yavaşıması ilə daha çox əlaqədar olması ilə hesab edilir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) 2025-ci il sentyabr “İqtisadi İcmal” hesabatına əsasən, qlobal işsizlik səviyyəsi tarixi göstəricilərlə müqayisədə aşağı səviyyədə qalsa da, İƏİT ölkələrində median işsizlik 2024-cü ilin sonundan etibarən artaraq 5,5 faizə çatıb. Bu, əmək bazarlarında tədricən zəifləmə əlaməti kimi qiymətləndirilir.

## Avrozonada vəziyyət ürəkaçan deyil

Avropa iqtisadiyyatı da cari ilin ötən 11 ayını gözlənilən artım templəri ilə başa vurmadı. Avrozonada illik əsasda iqtisadi artım III rübdə 1,3 faiz təşkil edib ki, bu da əvvəlki rüblə müqayisədə 0,2 faiz-bənd aşağıdır. Rüblük əsasda iqtisadi artım isə 0,2 faiz olub. Ən yüksək illik artım İrlandiyada və İspaniyada qeydə alınıb. Rüblük artım baxımından isə İsveç (1,1 faiz) və Portuqaliya (0,8 faiz) ən yaxşı nəticə göstərib. Avrozonada sənaye sektorunda istehsal həcmi də əvvəlki aya nisbətən 1,2 faiz azalıb.

Avropa İqtisadi Tədqiqatlar Mərkəzinin prezidenti Axim Vambax bildirib ki, qlobal qeyri-müəyyənliyin davam etməsi investorların dövlət investisiya proqramının həyata keçirilməsinə dəstək verməsini çətinləşdirir. Dekabr ayının birinci yarısında Avrozonada metal emalı, əczaçılıq və maşınqayırma sənayelərində vəziyyət yaxşılaşsa da, avtomobil və qida sənayesində göstəricilər pisləşib. Avrozona üzrə İqtisadi İnkişaf Proqnozu İndeksi (İİPİ) noyabrda 3,4 bənd azalaraq 22,7 bəndə enib. Vambaxın fikrincə, maliyyə bazarı ekspertləri cari vəziyyətdəki dinamikanın enəcəyini, yalnız orta-müddətli dövrdə iqtisadi canlanmanın baş verəcəyini proqnozlaşdırırlar.

**Qrafik 3. İşsizlik səviyyəsi, %-lə**

Mənbə: Trading Economics




## Uçot dərəcələrinin azaldılması qızılı və “Bitcoin”i bahalaşdırıb

ABŞ-ın mərkəzi bank funksiyalarını yerinə yetirən Federal Ehtiyat Sistemi (FES) tərəfindən 2025-ci il dekabrın 12-də uçot faiz dərəcəsinin illik 3,5-3,75 faiz aralığına endirilməsi qlobal iqtisadiyyat üçün növbəti təsirlərini nümayiş etdirdi. Həmin qərar Amerika hökumətinin cari ilin ikinci yarısından etibarən pul siyasətində aşağı stavkalı rejimə keçdiyini göstərməklə, pul siyasətinin liberallaşdığına dəlalət etdi. FES-in faiz dərəcəsini azaltması özünü dərhal bank və maliyyə seqmentlərində göstərdi, dollar digər aparıcı valyutalar qarşısında ucuzlaşdı. Belə ki, avro-dollar mübadiləsi 1.1644 səviyyəsindən 1.1707 səviyyəsinədək yüksəldi. İngilis funtu-dollar cütlüyü üzrə mübadilə isə 1.3326 həddindən 1.3392 həddinə qədər artım sərgilədi. Habelə dollar-yapon yeni üzrə mübadilə 156.66 səviyyəsindən 155.48 səviyyəsinədək gerilədi.

Avropa Mərkəzi Bankı da cari ildə faiz dərəcəsini 3,15-dən 2,15 fazidək endirib. Çin Xalq Bankı deflyasiya təzyiqlərinin yumşaldılması və iqtisadi artımın stimullaşdırılması məqsədilə uçot faiz dərəcəsini 10 baza bəndi azaldaraq 3 faizədək aşağı salıb. Rusiya Mərkəzi Bankı faiz dərəcəsini 4 faiz-bənd azaldaraq 17 faizdək endirib. Ümumilikdə, uçot dərəcəsi ilə bağlı qərarlar birjalarda qızıla və səhmlərə müsbət təsir göstərib. Sarı metalın beynəlxalq birjalarda bir unsiyasının qiyməti 4182 dollardan 4500 dollara qədər bahalaşıb. Kriptobazarda da müəyyən aktivlik müşahidə edilib. Noyabrda müəyyən eniş göstərən virtual pul bazarda “Bitcoin” və digər kriptovalyutaların ucuzlaşması səngiyib. Həftənin əvvəlində 88-89 minə satılan “Bitcoin”in qiyməti artıq 95 minə yüksəlib. Pərakəndə kriptovalyuta bazarında əhval-ruhiyyə yaxşılaşır ki, bu da investorların kriptovalyutaya da marağını artıracaq.

Eləcə də Amerika fond indeksləri də əvvəlki yarım aylıq durğunluqdan sonra özünə gəlib, əksər səhmdarlar indekslərdə artımlar əldə ediblər. Bazarın ən böyük seqmentlərindən biri olan “Amazon.com Inc.”in səhmləri son bir gündə 1,7 faiz bahalaşıb. Bu, şirkətin investisiya yatırımları üçün əlavə motivasiya verib və “Amazon” səhmdarları Hindistandakı biznesini inkişaf etdirmək üçün 2030-cu ilin sonuna qədər 35 milyard dollar investisiya yatırmaq planlarını açıqlayıb. ABŞ-dakı səhm aktivliyi digər qlobal sərmayəçilərin də fəallığına səbəb olub. FES-in faiz siyasəti ilə bağlı situasiyalara həssas yanaşan beynəlxalq səhmdarlar dolların məzənnəsinin zəifləməsi fonunda səhm konvertasiyalarını artırılar. Kanada Bankı notlar və qiymətli kağızlar üzrə faiz dərəcəsini son bir ayda aşağı saxladığı halda, ötən gün 2,25 faiz səviyyəsində saxlayıb. İsveçrə Milli Bankının səhmlərində də dəyərlər nəzərə çarpıb.

**Qrafik 1. Qlobal qeyri-müəyyənlik indeksləri[1]**

Mənbə: Ahir, Bloom, and Furceri 2022; Caldara and others 2020; Davis 2016; BVF-nin hesablamaları




## Büdcə paketlərində artım olmadı

Fiskal siyasət üzrə dünyanın iqtisadi mənzərəsinə gəldikdə isə inkişaf etməkdə olan ölkələrdə iqtisadi artım tempinin zəifləməsi fonunda davam edən yüksək büdcə kəsirləri və genişlənməkdə olan dövlət borcu, o cümlədən artan müdafiə, borclanma xərcləri, əhalinin yaşlanması və “yaşıl keçid” investisiyaları fiskal dayanıqlılıq üçün ciddi çağırışlar yaradır. DB-nin 2025-ci ilin iyun hesabatına əsasən, son illərdə büdcə kəsiri inkişaf etməkdə olan ölkələrdə orta hesabla ÜDM-in 6 faizinə çatıb ki, bu da yaşadığımız əsrdə qeydə alınmış ən yüksək göstəricidir. Faiz xərcləri isə büdcə kəsirinin üçdə bir hissəsinə bərabər olub. ABŞ-da bu fiskal çərçivə sayəsində gəlirlərin artımı əvvəlki tempdən aşağı olub. Eləcə də digər inkişaf etmiş Amerika ölkələri və Asiya regionu dövlətlərində də xarici maliyyələşmə imkanlarının məhdudlaşdığı şəraitdə fiskal məkanın genişləndirilməsi məqsədilə dövlət büdcəsi gəlirləri üzrə alternativ mənbələrin yaradılması və optimallaşdırılması, o cümlədən vergitutma potensialının artırılması prioritet vəzifələr kimi müəyyənləşib.. Belə ki, gəlirlərin artırılması ilə iqtisadi artım arasında tarazlığın təmin olunması üçün yüksək maliyyə itkilərinə səbəb olan vergi güzəştləri və azadolmaların mərhələli şəkildə azaldılması, eyni zamanda vergi inzibatçılığının və yığım mexanizmlərinin gücləndirilməsi istiqamətində islahatların həyata keçirilməsi fiskal siyasətdə əsas xətt kimi nəzərə alınıb. Bundan əlavə, bəzi resurs ixrac edən inkişaf etməkdə olan ölkələrdə neft gəlirlərinin azalması fonunda sərtləşdirilmiş fiskal siyasətin tətbiqinə də geniş yer verilməsi qərara alınıb.

Bunu nəzərə alan ABŞ büdcəni çox zəif templə artırıb, Avropa İttifaqı isə büdcə paketini artırmayıb. Avrozonada növbəti ilin büdcə sənədi 192,8 milyard avro məbləğində təsdiqlənib. Avropa Parlamenti 2026-cı il üzrə büdcə layihəsinə əsasən, ümumi öhdəliklərin həcmi 192,8 milyard avro, ödənişlərin həcmi isə 190,1 milyard avro məbləğində müəyyən edilib. Bununla yanaşı, 2021-2027-ci illər üzrə çoxillik maliyyə çərçivəsinin xərclər tavanı daxilində 2025-ci il üçün 715,7 milyon avro ehtiyat olaraq saxlanılıb. Beləliklə, AB-nin 2026-cı il üçün ümumi büdcə zərfi əvvəlki büdcə paketinə nisbətən 2 milyard avro azaldılıb.

Aİ iqtisadçılarının qənaətinə görə, birlik ölkələrinin iqtisadi potensialı büdcə xərclərini təmin etməyə imkan verəcək, ancaq büdcədə kəsirlər və borcun artması da qaçılmazdır. Proqnozlara görə, 2025-ci ildə Aİ-nin 11 üzv ölkəsində büdcə kəsiri ÜDM-in 3 faizini aşacaq. Həmin ölkələr sırasında Belçika, Almaniya, Fransa, Latviya, Malta, Avstriya, Slovakiya, Finlandiya, Macarıstan, Polşa və Rumıniya yer alır. İtaliyada isə büdcə kəsirinin ÜDM-in 3 faizinə qədər azalacağı fərz edilir. Ümumilikdə, Aİ-nin dövlət büdcəsi kəsirinin 2026-cı və 2027-ci illərdə 3,4 faizə yüksələcəyi gözlənilir. Aİ-nin dövlət borcu isə gələn il ÜDM-in 84, 2027-ci ildə 85 faizə qədər artacağı ehtimal olunur.

***E.CƏFƏRLİ***

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# Azərbaycan mədəniyyətinin 2025-ci il portreti...

Geridə qoymağa hazırlaşdığımız 2025-ci il Azərbaycan cəmiyyəti üçün təkcə ictimai-siyasi hadisələrlə deyil, həm də mədəniyyət cameəsində yaşanan bir çox hadisələrlə yadda qaldı. Bu il paytaxt Bakı və ölkənin digər şəhərləri beynəlxalq mədəniyyət mübadiləsi üçün möhtəşəm səhnə kimi çıxış etdi, sərgilər və festivalar Azərbaycan mədəniyyətini dünya səviyyəsində tanıtdı. Eyni zamanda, bu il xalqın əsrlər boyu sevdiyi sənətkarlarla vidalaşdığı bir il kimi də ağrılı izlər buraxdı...

## Bu il hansı hadisələrlə yadda qaldı?

## 2025-ci ilin mədəni tədbirləri

Qeyd etdiyimiz kimi, 2025-ci il Azərbaycan mədəniyyətinin zəngin və dinamik illərindən biri olub. Ölkədə müxtəlif səviyyəli musiqi, incəsənət, beynəlxalq tədbirlər və mədəni layihələr geniş şəkildə həyata keçirilib.

2-4 may tarixlərində Azərbaycanda ilk dəfə keçirilən Beynəlxalq Xalça Festivalının açılışı olub. Festivalın əsas məqsədi Azərbaycan xalçaçılıq sənətini dünya müstəvisində tanıtmaq, onun zəngin irsini və gələcək inkişaf perspektivlərini nümayiş etdirmək, dünya xalçaçılarının təcrübə və bacarıqlarından bəhrələnmək idi.

2025-ci il iyunun 3-də Mədəniyyət Nazirliyi və Prezidentin xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə Laçın şəhərində "MDB-nin mədəniyyət paytaxtı - 2025" ilinin rəsmi açılış mərasimi keçirilib. Bu, tədbir Azərbaycan mədəniyyəti üçün mühüm platforma hesab olunur. Belə ki, Laçın şəhərinin "MDB-nin mədəniyyət paytaxtı" elan edilməsi şəhərin mədəni dirçəlişi və beynəlxalq əməkdaşlıq sisteminə fəal inteqrasiyası üçün mühüm təkan olacaq.

14-28 iyun 2025-il tarixlərində "Baku Piano Festival 2025" adlı möhtəşəm festival keçirilib. Bu musiqi festivalı klassikadan cazadək geniş repertuarı ilə diqqət çəkdi. Festivalda yerli və xarici piano ifaçıları, konsertlər, sənətkar görüşləri, literatur müsabiqələr və vörkşoplar keçirilib. Tədbir çoxsaylı mədəni tədbirlərlə paralel olaraq Azərbaycanda musiqi sənətinin inkişafına töhfə verdi.

Yay mövsümündə (23-26 iyul) Bakı dəniz sahilində yerləşən "Sea Breeze Resortda" "Dream FEST 2025" musiqi festivalı keçirildi. Bu beynəlxalq açıq hava konsertlərində yerli və xarici tanınmış ifaçılar tərəfindən bir neçə gecə boyu müxtəlif janrlarda musiqilər səsləndi, həm pop, həm də milli repertuarlar yer aldı.

Payız mövsümündə Bakı beynəlxalq səviyyəli incəsənət mərkəzinə çevrildi. 31 oktyabr - 16 noyabr 2025-ci il tarixlərində Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin dəstəyi ilə Baku International Arts Festival (BIAF) festivalı baş tutdu. Festival dövründə müasir rəqs, klassik musiqi, teatr tamaşaları, opera və dünya səhnə incəsənətləri təqdim olundu. Festivalda 10-dan çox ölkədən 100-dən artıq sənətçi çıxış edərək Azərbaycan mədəniyyətini dünya sənət aləmi ilə birləşdirdi.

5-11 dekabrda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) mədəniyyət festivalı ilk dəfə Azərbaycanda təşkil edildi. Tədbirə 50-dən çox ölkədən 300-dən artıq mədəniyyət işçisi və ekspert qatılmışdı. Festival çərçivəsində mədəniyyət nazirlərinin görüşləri, yaradıcılıq və kino proqramları, modalar nümayişi, oyun texnologiyaları sammiti və müxtəlif sahələr üzrə panel müzakirələr keçirilib. Bu layihə Azərbaycanı mədəni müxtəliflik, tolerantlıq və yaradıcılıq sahəsində regionun mədəni mərkəzi kimi təqdim etdi.



2025-ci il Azərbaycan mədəniyyəti üçün həm də böyük itkilərlə yadda qaldı. İncəsənət, musiqi, teatr və kino sahələrinə ömürlərini həsr etmiş bir çox tanınmış simalar bu il dünyalarını dəyişdi. Onların hər biri öz sahəsində iz qoymuş, yaddaşımızın bir parçasına çevrilmiş insanlardır.

Bu il vəfat etmiş tanınmış şəxslərin siyahısını və onların həyat yoluna qısa nəzəri təqdim edirik:

## İlin itkiləri: sənətkarlarla vidalaşma

Martın 16-da Azərbaycan mədəniyyəti daha bir görkəmli sənətkarını itirdi. Xalq artisti Ənvər Həsənov uzun sürən xəstəlikdən sonra 74 yaşında dünyasını dəyişdi. O, onilliklər boyu milli kino və teatr tarixində öz dəsti-xətti olan aktyorlardan biri kimi tanınırdı.

Avqust ayı isə xüsusilə ağır itkilərlə yadda qaldı. Avqustun 1-də Xalq artisti, muğam sənətinin görkəmli nümayəndəsi Arif Babayev 87 yaşında dünyasını dəyişdi. Onun muğam sənətinə verdiyi töhfələr, yetişdirdiyi tələbələr Azərbaycan musiqi tarixində silinməz iz buraxıb.

Sentyabrın 8-də Xalq rəssamı, Dövlət Mükafatı laureatı Nazim Bəykişiyev dünyasını dəyişdi. O, Azərbaycan təsviri sənətinin inkişafında mühüm rol oynamış sənətkarlardan biri idi.

Sentyabr ayının daha bir ağır itkisi ayın 13-də baş verdi. Azərbaycan teatr və kino aktyoru, Xalq artisti Hacı Murad Yagizarov Almaniyada vəfat etdi. Onun nəşi sentyabrın 16-da Azərbaycana gətirildi, Təzəpir məscidində vida mərasimi keçirildikdən sonra İkinci Fəxri Xiyabanda dəfn olundu. Aktyorun zəngin yaradıcılıq yolu teatr tariximizdə xüsusi yer tutur.

Sentyabrın 29-da Əməkdar artist Cabir İmanov infarkt səbəbilə 49 yaşında həyatını itirdi. Onun da vaxtsız ölümü sənət cameəsində dərin təəssüf hissi ilə qarşılandı.

Oktyabrın 9-da Xalq artisti Əminə Yusifqızı 89 yaşında vəfat etdi. Onun səhnə yaradıcılığı bir neçə nəsil tamaşaçının yaddaşında qalıb.

Oktyabrın 15-də Xalq artisti, tanınmış tarzən Ramiz Quliyev 78 yaşında dünyasını dəyişdi. Onun tar ifaçılığı Azərbaycan milli musiqi məktəbinin ən parlaq nümunələrindən hesab olunurdu.

Noyabrın 11-də isə 96 yaşlı Xalq artisti, məşhur rəqqasə Roza Cəlilova dünyasını dəyişdi. O, Azərbaycan rəqs sənətinin canlı əfsanələrindən biri idi.

İlin son ağır itkilərindən biri noyabrın 18-də qeydə alındı. 66 yaşlı Əməkdar artist Yadigar Muradov vəfat etdi. Onun yaradıcılığı da milli mədəniyyət tariximizdə özünəməxsus yer tutur.

2025-ci il bu itkilərlə Azərbaycan mədəniyyətinin yaddaşında qalacaq. Onlar aramızdan getsə də, yaratdıqları irs və sənətləri hər zaman xalqın xatirələrində dərin izlər buraxacaq...

*Yeganə BAYRAMOVA*




**"Səhliyalı" şirkətinin kollektivi Azərbaycan xalqını 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edir.**

**Həmrəylik günündə dünya azərbaycanlılarının qəlbi ana Vətənə böyük məhəbbətlə döyünür.**
**Qoy həmrəyliyimiz əbədi olsun!**
**Yeni il bütün ailələrə sevinc və xoşbəxtlik gətirsin!**

**Kollektiv adından şirkətin direktoru:**
**Nəcməddin Başirov**

SƏHLİYALI BS 1996

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4826
Sifariş: 2647
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova